Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 91 (8114) ŞƏNBƏ, 27 aprel 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





## İLHAM ƏLİYEV: "Biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik"

### Azərbaycan Prezidenti "Bir kəmər, bir yol" Forumunda çıxış edib

Aprelin 26-da Pekində 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu işə başlayıb. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti forumda iştirak edir.

Forumda 37 dövlət və hökumət başçısı, beynəlxalq təşkilatların rəhbərləri iştirak edirlər. Builki foruma Azərbaycan, Rusiya, Pakistan, Qazaxıstan, Avstriya, Belarus, Çexiya, Yunanıstan, Macarıstan, İtaliya, Serbiya, Sinqapur, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrin liderləri qatılıblar. "Bir kəmər, bir yol əməkdaşlığı, ümumi parlaq gələcəyin qurulması" mövzusunda keçirilən forum çərçivəsində 12 panel iclası və digər tədbirlər təşkil olunacaq.

2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunun açılış mərasimində çıxış edən Çin Xalq Respublikasının Sədri Si Cinpin bütün qonaqlara təşəkkürünü bildirdi. İlk forumdan sonra təşəbbüsü dəstəkləyən ölkələr arasında səmərəli əməkdaşlığın qurulduğunu deyən Çinin dövlət başçısı hazırda "Bir kəmər, bir yol" təşəbbüsünün 150 ölkə tərəfindən dəstəkləndiyini, bu sıraya bir sıra nüfuzlu beynəlxalq təşkilatların da daxil olduğunu diqqətə çatdırdı. "Bu da göstərir ki, bizim təşəbbüs bütün dünyanı əhatə edir", - deyən Si Cinpin həmin təşəbbüsün dünyanın inkişafında yeni mərhələ olduğunu diqqətə çatdırdı. O, "Bir kəmər, bir yol" layihəsinin həm də ölkələr arasında ikitərəfli, üçtərəfli və çoxtərəfli əməkdaşlığı da əhatə etdiyini vurğuladı. Çin lideri iqtisadi, ticari, maliyyə və digər sahələrdə xüsusi əhəmiyyəti ilə seçilən bu təşəbbüsün qədim İpək yolu üzərində yeni dəyərlərin formalaşmasına da dəstək göstərdiyini, qloballaşmanın iqtisadiyyata mənfi təsirlərini azaltdığını, bu layihənin beynəlxalq səviyyədə yüklərin daşınmasına və beləliklə də milli gəlirlərin artmasına, regional inkişafa ciddi təkan verdiyini bildirdi. Həmin layihənin həyatın bütün sahələrinə, xüsusilə də sosial məsələlərə inkişaf baxımından ciddi təsir göstərdiyini deyən Çinin dövlət başçısı mədəni-humanitar əlaqələrin genişlənməsində də yeni mərhələnin başlandığını vurğuladı.

Sonra Rusiya Prezidenti Vladimir Putin, Qazaxıstanın birinci Prezidenti Nursultan Nazarbayev, Misir Prezidenti Əbdülfəttah Sisi, Malayziyanın Baş naziri Mahathir Mohammad, Pakistanın Baş naziri İmran Xan, BMT-nin baş katibi Antonio Quterreş "Bir kəmər, bir yol" təşəbbüsünün əhəmiyyətindən danışdılar. Onlar bəşəriyyəti narahat edən məsələlərə diqqət çəkdilər, mövcud problemlərin həllində və dünya iqtisadiyyatının dinamik inkişafında bu layihənin böyük rol oynadığını bildirdilər. Bununla da forumun birinci hissəsi başa çatdı.

Forumun ikinci hissəsi dövlət başçıları səviyyəsində "Daha parlaq birgə gələcəyin qurulması" mövzusuna həsr olundu.

Dövlətimizin başçısı yüksək səviyyəli bu görüşdə çıxış etdi.

Bax: səh. 2

## "Münasibətlərimizin inkişafından çox məmnunuq"



Aprelin 26-da Pekində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlət başçıları görüşdə çıxış etdilər.

Rusiya Prezidenti **Vladimir PUTİN** dedi:

- Hörmətli İlham Heydər oğlu.

Hörmətli dostlar.

Sizi görməyimə şadam. Bizim artıq, necə deyərlər, kuluarlarda bir-birimizlə qısaca söhbət etmək imkanımız olub. Sizinlə daha geniş tərkibdə söhbət etmək imkanına görə şadam. Sizinlə mütəmadi görüşürük, həm fikir mübadiləsi aparmaq, mövqelərimizi müqayisə etmək, həm də birgə işimizi bir növ təshih etmək imkanımız olur. Birgə işimiz isə, mənim fikrimcə, ümumiyyətlə, çox yaxşı gedir.

Ticari-iqtisadi əlaqələrimiz inkişaf edir. Biz hətta əslində Sizin təşəbbüsünüzlə ticari-iqtisadi sahədə, demək olar ki, xüsusi qarşılıqlı fəaliyyət mexanizmi yaratmışıq. Zənnimcə, bu təşəbbüs yaxşı inkişaf edir. Sonra Rusiya və Azərbaycan tərəfindən olan həmkarlarımızdan bu barədə danışmalarını xahiş edərik. Lakin bütövlükdə bizim münasibətlərin inkişafından məmnunuq. Əminəm ki, bu gün Sizinlə qarşılıqlı fəaliyyətimizin bütün aspektləri barədə danışacağıq. Sizi görməyimə çox şadam.

❖ ❖ ❖

Azərbaycan Prezidenti **İlham ƏLİYEV** dedi:

- Çox sağ olun, hörmətli Vladimir Vladimiroviç. Yeni görüşümüzə çox şadam. Bizim görüşlərimiz münasibətlərimizin inkişafına çox ciddi təkan verir. Biz müntəzəm olaraq görüşürük və əlbəttə ki, bütün sahələrdə əməkdaşlığın, qarşılıqlı fəaliyyətin çox mühüm məsələlərini həll edirik. Münasibətlərimizin inkişafından çox məmnunuq. Onlar bütün sahələri əhatə edir və fəal siyasi dialoq aparılır. Biz əmtəə dövriyyəsinin artmasını müşahidə edirik. Sizin qeyd etdiyiniz kimi, konkret layihələrin irəlilədilməsi üçün xüsusi mexanizm mövcuddur. Biznes dairələri birgə işləməyə çox böyük maraq göstərirlər. Əlbəttə, nəqliyyat-logistika sahəsi əməkdaşlığın mühüm istiqamətidir. Burada da energetika, kənd təsərrüfatı, humanitar əməkdaşlıq sahələrində də yaxşı nəticələrimiz var. Düşünürəm ki, qarşılıqlı münasibətlərin bugünkü səviyyəsi ikitərəfli və regional gündəliyə aid bir çox məsələləri həll etməyə imkan verir. Buna görə də əminəm ki, bizim indiki görüşümüz də dostluğa, mehriban qonşuluğa, qarşılıqlı dəstəyə, qarşılıqlı hörmətə əsaslanan münasibətlərimizin gələcək inkişafına yaxşı təkan verəcək. Biz bu münasibətləri çox dəyərləndiririk, onları çox qiymətləndiririk və onların fasiləsiz inkişaf edəcəyinə ümid bəsləyirik. Bir daha sağ olun.

Ardı 2-ci səh.

## MEHRİBAN ƏLİYEVA: "Mən hər zaman sizin yanınızdayam"



Aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Nəsimi rayonunda Tibb Universitetinin 4 saylı yataqxanasında və Qaradağ rayonunda salınan "Qobu Park" yaşayış kompleksində məskunlaşan məcburi köçkünlərlə görüşüb.

AZƏRTAC xəbər verir ki, əvvəlcə Birinci vitse-prezident Mehriban Əliyeva məcburi köçkün ailələrinin yaşayış şəraiti ilə tanış olmaq üçün Tibb Universitetinin 4 saylı yataqxanasına gəldi. 1993-cü ildən işğal altında olan bütün rayonlardan məcburi köçkünlərin məskunlaşdığı yataqxanada 150-dən çox ailə yaşayır. Məcburi köçkün ailələri dövlətin onlara göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirdiklərini bildirdilər, bu dəstəyi hər zaman hiss etdiklərini söylədilər.

Bu istiqamətdə görülən işlərin bundan sonra da davam etdiriləcəyini vurğulayan Birinci vitse-prezident **Mehriban Əliyeva** dedi:

Ardı 3-cü səh.

## BİRİNCİ VİTSE-PREZİDENT: "Bir daşa da ziyan dəyməməlidir"



Aprelin 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Azərbaycan memarlığının və mədəniyyətinin nadir incisi sayılan İçərişəhərin qorunması diqqət mərkəzindədir. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın milli sərvəti olan İçərişəhərin qədimiliyinin qorunmasına daim diqqət və qayğı ilə yanaşırlar.

Ardı 3-cü səh.

## İLHAM ƏLİYEV nümunə göstərir

### "Məmurun vəzifəsi vətəndaşa xidmət etməkdir"

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev bu günlər Bakının Xəzər rayonunda, Mərdəkan-Qala avtomobil yolunun açılışında da yerli sakinlərlə görüşmüş, onların problemləri, qayğıları ilə maraqlanmışdır. Nailiyyətlərin hər bir vətəndaş və ümumilikdə ölkə üçün hansı əhəmiyyət kəsb etdiyini şərh edən dövlət başçısı bildirmişdir ki, "müasir infrastruktur layihələrinin icrası bizim sosial siyasətimizin özülünü təşkil edir, çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır və çox çalışırıq ki, hər bir yerdə inkişaf olsun, quruculuq, abadlıq işləri aparılsın".

Qeyd etmək lazımdır ki, dövlət başçısının son zamanlar sadə insanlarla keçirdiyi hər görüş hesabat xarakterlidir. Belə tədbirlərdə ölkədə görülən işlərlə bağlı Prezident xalqa məlumat verir, həyata keçirilən islahatların, quruculuq işlərinin insanların firavan həyatına, sosial durumunun yaxşılaşmasına kökləndiyini izah edir.

Budəfəki görüş də istisna olmamışdır. Prezident son 15 il ərzində ölkədə 15 min kilometr yol çəkildiyini, bundan sonra da hətta ən ucqar kəndlərə belə, yolların salınmasının davam edəcəyini bildirmiş, Davos Ümumdünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycanın yolların keyfiyyətinə görə dünya miqyasında 34-cü yerə çıxdığını xatırlatmışdır: "Qəsəbələrarası və qəsəbədaxili yollar diqqət mərkəzindədir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə göstəriş verilib ki, Bakı qəsəbələrində yol infrastrukturuna çox ciddi fikir verilsin və demək olar ki, indi bu proses geniş vüsət alıb. Əminəm ki, bütün qəsəbələrdə daxili yollar bərpa ediləcək və insanlara rahatlıq verəcək".

Belə görüşlərdə yaddaqalan əsas məqamlardan biri də sadə insanların aparılan islahatlardan, reallaşan yeniliklərdən razı qalmalarını dilə gətirmələridir. Prezident İlham Əliyevin isə məmnunluğa cavabı bu görüşdəki kimi, səmimiyyətdən doğan hislərin ifadəsi olur: "Çox sağ olun, təşəkkür edirəm. Mən çalışıram və bundan sonra da çalışacağam ki, doğma xalqıma ləyaqətlə xidmət edim. Ölkə qarşısında duran bütün problemlər öz həllini tapmalıdır.

Ardı 5-ci səh.




## FORMULA 1

## Gərgin idman mübarizəsi yaşanıb









Aprelin 26-da Bakıda "Formula-1" üzrə dünya çempionatının dördüncü mərhələsinə - SOCAR Azərbaycan Qran-prisinə start verilib.

AZƏRTAC xəbər verir ki, yarışın birinci günündə pilotlar 6 kilometr uzunluğundakı Bakı şəhər halqasında sərbəst yürüşdə güclərini sınayıblar.

Birinci sərbəst yürüş "Williams" komandasının pilotu Corc Rassellin bolidinin drenaj lükünə ilişərək sıradan çıxması ilə əlaqədar ləğv edilib.

Ardı 6-cı səh.









## Prezidentin gənclərə inamı və böyük etimadı var

Hər bir liderin millətinə, dövlətinə bəxş etdiyi ən böyük nailiyyət o xalqın gələcəyi üçün yetişdirdiyi gənclikdir. İntellektual səviyyəsi ilə fərqlənən, milli ideyalar ruhunda tərbiyə alan, sağlam düşüncəyə, təfəkkürə, əqidəyə malik olan gənclik!

Bu mənada gənclərə münasibət həmin ölkənin gələcəyinə münasibətdir. Təsadüfi deyil ki, müasir dövrdə gənclər siyasəti sahəsində qazanılan uğurlar dövlətlərin ümumi səviyyəsini, mədəni, humanitar, iqtisadi, siyasi potensialını müəyyənləşdirən vacib meyarlardan sayılır. Ona görə də dünyanın bütün sivil cəmiyyətlərində gənc nəslin mənəvi-ideoloji tərbiyəsinə, həyatda fəal iştirakına, dövlət quruculuğu işinə geniş cəlb olunmasına, onların sağlamlığının qorunmasına xüsusi qayğı ilə yanaşılır. Ənənələr də, əsrlərlə üst-üstə toplanmış dövlətçilik nailiyyətləri də gənclər tərəfindən davam etdirilir, keçmişlə bu gün, bu günlə gələcək də onlarda qovuşur. Aydın sabahlara doğru yola çıxmış toplumu öz hədəflərinə formalaşdırdığı gənclik yetirir.

Azərbaycan gəncliyi bizim qürur yerimizdir. Vətənin istiqlalı üçün sinəsini sipərə çevirən, hər qarış torpağı uğrunda canından keçən, inkişafa, oxuyub-öyrənməyə, ölkənin tərəqqisinə can atan gənclikdir bu! Sabahla bağlı ümidlərimizi gerçəkliyə çevirənlərimiz, gələcəyi yaradanlarımızdır.

Dəyişən, sürətlə mürəkkəbləşən dünya bizdən nə istəyir? Vətən hissi, torpaq sevgisi ilə yaşayan, Azərbaycanın təəssübünü çəkən zəka sahiblərini, intellektual gəncliyi, milli elitanı arzulayır.

Ulu öndər Heydər Əliyev Azərbaycana rəhbərliyi dövründə gəncliyi yeni inkişaf mərhələsinə yetirdi. Gənclər üçün bərabər imkanlar mühiti yaratdı. Onların ən çox ehtiyacı olan dəyəri - sosial ədalət normalarını bərqərar etdi. Ali məktəblərin qapılarını istedadından, biliyindən başqa güvənc yeri olmayan bütün gənclərin üzünə açdı. Fərdi inkişafa, karyera irəliləyişlərinə can atan gənclərimizə dəstək oldu.

Ardı 5-ci səh.

# İLHAM ƏLİYEV: “Biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik”

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Hörmətli həmkarlar.

Xanımlar və cənablar.

İlk növbədə, bu foruma dəvətə görə Prezident Si Cinpinə minnətdarlığımı bildirmək istəyirəm. Biz bunu Azərbaycan ilə Çin arasında dostluğun və tərəfdaşlığın göstəricisi hesab edirik. Bu il Çin Xalq Respublikasının yaradılmasının 70-ci ildönümü qeyd edilir. Bu münasibətlə Prezident Si Cinpini və Çin xalqını təbrik edirəm. Bu illər ərzində Çin Xalq Respublikası bütün sahələrdə tərəqqi və inkişafa nail olub. Azərbaycan lap əvvəldən Prezident Si Cinpin tərəfindən irəli sürülmüş “Bir kəmər, bir yol” təşəbbüsünü dəstəkləyib. Bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Azərbaycanın sürətli iqtisadi inkişafı bizə ölkəni transformasiya etməyə kömək etmişdir. Ötən on beş ildə iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Yatırılan 260 milyard dollar həcmində sərmayə bizə ölkəmizi müasirləşdirməyə və müasir infrastrukturu, o cümlədən nəqliyyat sahəsində infrastrukturu yaratmağa kömək etmişdir. Azərbaycanın çox aşağı səviyyədə xarici borcu var. Bu, bizim ümumi daxili məhsulun təxminən 19 faizini təşkil edir. Bizim ehtiyatlarımız xarici borcumuzdan beş dəfə çoxdur. Azərbaycanın builki iqtisadi göstəriciləri artımın olduğunu nümayiş etdirir. Ümumi daxili məhsul 3 faiz artıb, inflyasiyanın səviyyəsi 2,1 faizdir və iqtisadiyyatın şaxələnməsi bizim əsas məqsədlərimizdən biridir.

Azərbaycanın çox böyük neft və qaz ehtiyatları var. Biz neft və qazımızı beynəlxalq bazarlara nəql etmək üçün çoxsaylı boru kəmərləri tikmişik və əsas hədəfimiz iqtisadiyyatımızı şaxələndirmək, insan kapitalına investisiya yatırmaq və inkişaf üçün dayanıqlı imkanlar yaratmaqdır. Şaxələndirməyə gəldikdə, bizim diqqətimiz əsasən sənayenin, kənd təsərrüfatının, turizmin, xidmətlər sektorunun, informasiya və kommunikasiya texnologiyalarının inkişafına yönəlib. İnfrastruktur layihələri bizim üçün çox önəmlidir və biz müasir infrastrukturun yaradılmasına sərmayə yatırmaq üçün maliyyə resurslarımızdan istifadə etdik. Azərbaycanda qazlaşdırma səviyyəsi 95 faiz təşkil edir, Azərbaycan elektrik enerjisini, neft və qazı ixrac edən ölkədir. Nəqliyyat sahəsinə investisiyaların yatırılması bizim əsas prioritetlərimizdən biridir.




Üç il öncə Azərbaycan və Çin “İpək Yolu İqtisadi Kəməri”nin yaradılmasının birgə təşviqinə dair Anlaşma Memorandumu imzalayıb. Müasir nəqliyyat infrastrukturunun yaradılması Azərbaycanın prioritetləri sırasındadır. Coğrafi mövqeyimizdən bəhrələnərək biz Asiya ilə Avropa arasında körpülərin qurulmasına investisiya yatırdıq.

Açıq dənizə çıxışı olmayan ölkə olmağımıza baxmayaraq, biz Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevirmişik. Bizi qonşularımızla birləşdirən şaxələnmiş dəmir yolu şəbəkəsi yaratmışıq. Azərbaycanda son 15 ildə 15 min kilometr yol və avtomagistrallar çəkilib. Davos Dünya İqtisadi Forumunun hesablamalarına görə, Azərbaycan yolların keyfiyyətinə görə dünyada 34-cü yerdədir.

İnfrastrukturun inkişafına, həmçinin çox əlverişli biznes mühitinin yaradılması ilə dəstək verilir. Qeyd etdiyim kimi, 260 milyard dollar həcmində investisiya yatırılıb və bunun yarısını xarici investisiyalar təşkil edir. Bu gün Azərbaycandakı biznes mühiti dünyada olan ən qabaqcıl biznes mühitlərindən biridir. Dünya Bankının ən son “Doing Business” hesabatına görə, Azərbaycan biznes mühiti üzrə 25-ci pillədədir və bir il ərzində biz mövqeyimizi əsaslı şəkildə yaxşılaşdırmışıq. İndi Azərbaycan dünyada ən çox islahat aparan on ölkə sırasındadır.

Nəqliyyat infrastrukturundan danışarkən hava nəqliyyatına qoyulan investisiyaları əlavə etmək istəyirəm. Altı beynəlxalq hava limanı müasir nəqliyyat infrastrukturunun yaradılmasına növbəti töhfəmizdir. Heydər Əliyev Beynəlxalq Aeroportu “Skytrax” Beynəlxalq Nəqliyyat Reytinq Agentliyi tərəfindən ən yaxşı regional hava limanı kateqoriyasında beş ulduza layiq görülüb. 2017-ci ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xətti təkcə 3 ölkəni birləşdirən regional layihə deyil. O, eyni zamanda, qitələri birləşdirir, Asiya və Avropa arasında vacib bağlantıdır. Bu dəmir yolu “Şərq-Qərb nəqliyyat dəhlizi”nin mühüm hissəsidir. Bakı-Tbilisi-Qars dəmir yolunun tikintisini tamamlamaq üçün tərəfdaşlarımızla bizə çoxlu vaxt tələb olundu və bu gün bu dəmir yolu Avrasiyada nəqliyyatda çox mühüm rol oynayır.

Azərbaycanın sərmayə yatırdığı daha bir əhəmiyyətli nəqliyyat layihəsi “Şimal-Cənub dəhlizi”dir. “Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri”ndə yerləşən ölkələr öz mallarını nəql etmək üçün Azərbaycanın ərazisindən istifadə edirlər. Buna görə də müasir infrastrukturun yaradılmasına yatırdığımız investisiyalar yalnız iqtisadi potensialımızın artırılmasına və bizim dost, tərəfdaş və qonşularımıza xidmət göstərməyimizə kömək etmir, bu, həm də ticarət, turizm, nəqliyyat sahələrində nadir imkan yaradır və xalqları, ölkələri birləşdirir. Ölkələr bir-birinə bağlanır və bu, sülh və sabitlik amalına xidmət edir. Beləliklə, Azərbaycan müasir nəqliyyat infrastrukturuna malik vacib tranzit ölkəyə çevrilib.

Ötən il istifadəyə verilmiş Lapis-Lazuli marşrutu Bakı-Tbilisi-Qars dəmir yolu xəttinə birləşərək Azərbaycanın tranzit potensialını daha da artırıb. Bu gün Azərbaycan sayı artmaqda olan ölkələr üçün tranzit imkanlarını təmin edir. Azərbaycan Xəzər dənizində 260 gəmidən ibarət ən böyük donanmaya malikdir. Azərbaycanda fəaliyyət göstərən və nisbətən yaxın vaxtlarda tikilmiş gəmiqayırma zavodu istənilən növ gəmini inşa edə bilər. Ötən il biz 15 milyon ton yük və 100 min konteyner yükaşırma qabiliyyətinə malik yeni beynəlxalq Bakı Dəniz Limanını istifadəyə verdik. Gələcəkdə onun imkanları 25 milyon ton və 1 milyon konteynerə qədər artırılacaq.

Müasir nəqliyyat və logistika infrastrukturu yaratmaqla biz yalnız ölkəmizi mühüm nəqliyyat mərkəzinə çevirmədik. Eyni zamanda, biz “Şərq-Qərb və Şimal-Cənub dəhlizləri” layihələrində iştirak edən ölkələr arasında əməkdaşlığa töhfə verdik. Beynəlxalq nəqliyyat layihələri ölkələr və xalqlar arasında əməkdaşlığın möhkəmləndirilməsinə xidmət edir. “Bir kəmər, bir yol” təşəbbüsü nəqliyyat sahəsində yeni imkanlar açmaqla yanaşı, ticarəti, turizmi, xalqlar arasında təmasları təşviq edir və Avrasiya məkanında sabitliyin, təhlükəsizliyin və sülhün bərqərar olması işinə xidmət göstərir.

Sülh və təhlükəsizlik haqqında danışarkən, Ermənistan və Azərbaycan arasında olan münaqişəni qeyd etmək istəyirəm. Təəssüflər olsun ki, uzun illər, 25 ildən çox müddət ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınan əraziləri Ermənistanın işğalı altındadır. İşğal nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünə çevrilmişdir. İnsanlarımız etnik təmizləməyə məruz qalmışdır və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etmişdir. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir. Bu, təkcə bizim ölkə üçün yox, regional sabitlik və sülh üçün ciddi bir problemdir. Ermənistan və Azərbaycan arasında olan münaqişə beynəlxalq hüququn norma və prinsipləri əsasında, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

Yekunda mən bir daha Azərbaycanı bu mühüm foruma dəvət etdiyinə görə Prezident Si Cinpinə səmimi təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Azərbaycanın gələcək iştirakı insanlar və xalqlar arasında körpülərin qurulmasında öz rolunu oynamağa davam edəcəkdir.

Çox sağ olun.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyev və Tacikistan Prezidenti Emoməli Rəhmon forum çərçivəsində söhbət etdilər.

# “Münasibətlərimizin inkişafından çox məmnunuq”



*Əvvəli 1-ci səh.*

Prezident **Vladimir PUTİN:** Sağ olun. Ticarətə gəldikdə, keçən il bizdə əmtəə dövriyyəsi, demək olar ki, 14 faiz artıb və 2,5 milyard dollara çatıb. Beynəlxalq gündəlikdə də ortaq məsələlərimiz çoxdur. Biz razılığa gəlmişik ki, avqust ayında Rusiyada növbəti Rusiya-Azərbaycan-İran sammiti keçirək. Belə ki, bu barədə də danışarıq.

Prezident **İlham ƏLİYEV**: Sağ olun.

❖ ❖ ❖

Görüşdə siyasi, iqtisadi, energetika, infrastruktur, investisiya, kənd təsərrüfatı, neft-qaz, nəqliyyat, sənaye, əczaçılıq, təhsil, mədəniyyət, humanitar sahələrdə əməkdaşlığın, o cümlədən “Şimal-Cənub nəqliyyat dəhlizi”nin inkişaf perspektivləri müzakirə olundu. Hökumətlərarası komissiyanın uğurla fəaliyyət göstərdiyi bildirildi və iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.

Söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edildi. Prezident Vladimir Putin bəyan etdi ki, Rusiya bundan sonra da Minsk qrupunun həmsədr ölkəsi kimi münaqişənin həlli istiqamətində səylərini əsirgəməyəcək.

Azərbaycan Prezidenti İlham Əliyev həmsədr ölkə qismində Rusiyanın bu münaqişənin həllində səylərini yüksək qiymətləndirdi. Ölkələrimiz arasında dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminlik ifadə olundu.

# İkinci “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilib



Aprelin 26-da Çin Xalq Respublikasının Sədri Si Cinpinin və birinci xanımın adından ikinci “Bir kəmər, bir yol” Beynəlxalq Forumunda iştirak edən dövlət və hökumət başçılarının şərəfinə ziyafət verilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.



# MEHRİBAN ƏLİYEVA: "Mən hər zaman sizin yanınızdayam"

Əvvəli 1-ci səh.

- Çox sağ olun ki, məni belə qarşılayırsınız. Əziz analar, əziz bacılar, mən sizi çox sevirəm. Mən sizin üçün əlimdən gələn hər şeyi edəcəyəm. Mən gəlmişəm sizinlə danışım, problemlərinizi öyrənim. Sizə söz verirəm, həm cənab Prezident, həm mən daim sizin yanınızdayıq. Mən bilirəm ki, siz yararsız binalarda çətin vəziyyətdə yaşayırsınız. İnanın mənə, tapşırığımla yeni yol xəritəsi hazırlanır. Bütün yataqxanalarda, bütün pansionatlarda həm nazirliyin, həm Heydər Əliyev Fondunun əməkdaşları, həm də Regionların İnkişafı Fondunun əməkdaşları bir-bir gəzəcəklər, araşdıracaqlar, insanlarla görüşəcəklər, bütün problemləri öyrənəcəklər, lazım gəlsə, özüm də bütün pansionatları gəzəcəyəm.

**Sakinlər:** Allah Sizi qorusun!

**Mehriban Əliyeva:** Prezident İlham Əliyevin diqqətində olan ən vacib məsələ məcburi köçkünlərin və qaçqınların yaşayış şəraitinin yaxşılaşdırılmasıdır və bugünə qədər çox böyük işlər görülüb, 300 mindən artıq insan evlə təmin olunub və təmin olunacaq. Son illərdə mən görürəm ki, müsbət dinamika var. Əgər 2017-2018-ci illərdə 6126 mənzil təhvil verilibsə, bu il təkcə 1 il ərzində 6 min mənzil təhvil veriləcək.

**Sakinlər:** Allah Sizi qorusun. Biz Sizə minnətdarıq.

**Mehriban Əliyeva:** Mən sizə öz böyük məhəbbətimi çatdırıram.

**Sakinlər:** Bütün qaçqınlar, məcburi köçkünlər Sizdən razıdırlar.

**Mehriban Əliyeva:** Sağ olun, mən onu hiss edirəm. İnanın, mənim güc mənbəyim sizsiniz. Mən hər zaman sizin yanınızdayam. Bu, mənim borcumdur.

**Sakinlər:** Allah Sizə yar olsun, Siz Azərbaycan xalqına çox kömək etmisiniz. Sağ olun, var olun, Prezidentimiz sağ olsun, Allah Sizi qorusun.

Dövlətimizin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması istiqamətində həyata keçirdiyi tədbirlər, qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması üçün görülən işlər bu kateqoriyadan olan soydaşlarımızın hər zaman diqqət və qayğısı ilə əhatə olunduğunu göstərir.

Birinci vitse-prezident Mehriban Əliyeva Qubadlı rayonundan məcburi köçkün Murtuzəli Yusufovun məskunlaşdığı mənzildə oldu.

**Mehriban Əliyeva:** Mən xüsusi olaraq gəlmişəm ki, sizin yaşayış probleminiz qısa bir zamanda həll olunsun, normal yaşayış şəraiti təmin edilsin. Bilirsiniz, həm Azərbaycan dövləti, həm Prezident, həm də şəxsən mən bütün bu problemlərlə gündəlik fəaliyyətimizdə məşğul oluruq. Çıxış yolları da var. Bugünə qədər çox işlər görülüb, 300 mindən çox qaçqınımız, məcburi köçkünümüz mənzillə, evlə təmin olunub. Amma yenə də bu problem var. Biz gərək özümüz üçün proqram yaradaq ki, bütün bu məsələləri ardıcıl olaraq həll edək və bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə təmin edək. Mən bu yolda əlimdən gələn hər şeyi etməyə hazıram. Çox qısa bir zamanda normal ev şəraiti ilə təmin olunacaqsınız.

**Sakin:** Allah köməyiniz olsun.

Birinci vitse-prezident Tibb Universitetinin 4 saylı yataqxanasında məskunlaşan digər ailələrə də baş çəkdi, buradakı yaşayış şəraiti ilə yaxından tanış oldu, məcburi köçkün ailələrinin müraciətlərini dinlədi, onların qısa zamanda yeni mənzillərlə təmin ediləcəyini vurğuladı.

Birinci vitse-prezident yataqxananın yerləşdiyi ərazidə Zəngilan rayon 20 saylı orta məktəbdə də oldu. Mehriban Əliyeva 131 şagirdin təhsil aldığı məktəbdə müəllimlərlə görüşdü.

**Mehriban Əliyeva:** Mən xüsusi olaraq gəlmişəm ki, yataqxanadakı vəziyyətlə tanış olum. Görürəm ki, belə vəziyyətdə yaşamaq çox çətindir. Uzun illərdir ki, orada yaşamısınız. Ona görə də artıq plana uyğun olaraq çox qısa bir zamanda Qobuda tamamilə yeni salınmış qəsəbədə mənzillərlə təmin edilərsiniz. Məktəbin də orada yerləşməsi üçün mən indi bütün göstərişləri verdim.

**Sakinlər:** Çox sağ olun, Allah köməyiniz olsun.

**Mehriban Əliyeva:** Çox sağ olun, siz də bilin ki, sizin sözləriniz, dəstəyiniz, məhəbbətiniz mənim üçün ən əsas güc mənbəyidir. Mən bunu görəndə daha da çox işləməyə hazıram və mənim vəzifəm budur. Hər zaman sizin yanınızdayam.











Tibb Universitetinin 4 saylı yataqxanasında məskunlaşan məcburi köçkünlərin yaşayışı ilə yaxından tanış olan, onların müraciətlərini dinləyən Mehriban Əliyeva bu kateqoriyadan olan insanların həyat şəraitinin yaxşılaşdırılması üçün lazımi tədbirlərin görüləcəyini bildirdi.

❖ ❖ ❖

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Qaradağ rayonunda məcburi köçkünlər üçün salınan "Qobu Park" yaşayış kompleksinə gəldi.

Mehriban Əliyeva burada da qəsəbə sakinləri ilə görüşdü, müraciətləri dinlədi və onların həlli istiqamətində tapşırıqlarını verdi. Bildirildi ki, məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində daim ardıcıl işlər aparılır və bu qəbildən olan soydaşlarımızın problemləri həmişə dövlətin diqqət mərkəzindədir.

Daha sonra Birinci vitse-prezident məcburi köçkün Şəmsiyyə Mehdiyevanın evində oldu.

**Mehriban Əliyeva:** Qarabağ problemi ölkəmizin ən böyük problemidir və daim Prezidentin diqqət mərkəzindədir. Bu münaqişə və torpaqlarımızın işğal altına düşməsi nəticəsində qaçqın və köçkün həyatı sürməyə məcbur olan soydaşlarımızın problemlərinin həlli bizim ən böyük vəzifəmizdir.

Buraya gəlməmişdən əvvəl Bakıda yataqxanada məskunlaşmış soydaşlarımızla görüşdüm. Çox acınacaqlı, təhlükəli vəziyyətdə yaşayırlar. Onların hamısını normal ev şəraiti ilə təmin etmək dövlətimizin, Prezidentimizin, şəxsən mənim ən vacib vəzifəmizdir. Bu istiqamətdə bütün lazımi işlər görülüb və görülür. İndiyədək 300 mindən çox soydaşımız evlə təmin olunub, 103 yeni qəsəbə, şəhərcik salınıb. Şəhərcik təkcə evlərdən ibarət deyil, onu yaratmaq üçün infrastruktur - məktəblər, bağçalar tikilib, su, qaz, işıq xətləri çəkilib, asfalt yollar salınıb. Amma, yenə də hələ ki ağır vəziyyətdə yaşayan insanlarımız var və onların həyatının yaxşılaşdırılması üçün əlimizdən gələni edəcəyik.

Bu gün belə bir gözəl qəsəbədə olmağıma görə çox şadam. Xatırlayıram ki, buranın açılışında bərabər iştirak etmişdik. Görürəm ki, siz çox gözəl, rahat şəraitdə yaşayırsınız. Arzum odur ki, hər bir qaçqın və köçkün məhz belə şəraitdə yaşasın. Biz buna nail olacağıq. Mən əminəm, buna iradə də, imkan da var. Bütün bu məsələlər ardıcıl olaraq öz həllini tapacaq. İnşallah, Qarabağ problemi də öz həllini gərək sülh yolu ilə, beynəlxalq hüququn norma və prinsipləri əsasında tapsın, soydaşlarımız doğma torpaqlarına qayıtsın. Hələ ki bütün soydaşlarımızı normal yaşayış şəraiti ilə, işlə təmin etmək Azərbaycan dövlətinin ən əsas vəzifəsidir. İnanın ki, bu sahədə bütün lazımi işlər, addımlar atılır. Uzun bir prosesdir, çətin prosesdir, böyük maliyyə tələb edən prosesdir. Amma yenə də bütün lazımi addımlar atılır və bu istiqamətdə işlər davam etdirilir. Gözəl, yaxşı, müsbət dinamika var. Əgər 2017-2018-ci illər ərzində 6126 mənzil təhvil verilibsə, təkcə bu il 6 min mənzil təhvil veriləcək. Yəni, bu, o deməkdir ki, 6 min ailənin yaşayış şəraiti yaxşılaşacaq. Mən sizin hər birinizi görməyə çox şadam. Əgər sizin hansısa problemləriniz, xahişləriniz varsa, mən hər zaman kömək etməyə hazıram, hər zaman sizin yanınızdayam.

**Sakin:** Sayənizdə hər şey yaxşıdır, çox gözəl şəraiti, havası var. Hədiyyələriniz üçün çox sağ olun. Hər şey yaxşıdır, Allah sizə cansağlığı versin.

**Mehriban Əliyeva:** Bu iki balaca gözəl bala kimin uşaqlarıdır? Çox gözəl oğlanlardır. Amma indi mənə söylədilər ki, bağça fəaliyyət göstərmir. Göstəriş verəcəyəm ki, çox yaxın zamanda bağça fəaliyyətə başlasın. Çünki bu da vacibdir.

**Sakin:** Çox sağ olun, Sizin sayənizdə heç bir problemimiz yoxdur. Çox gözəl şəraitimiz var.

**Digər sakin:** Çox sağ olun ki, bizim qəsəbəyə gəlmisiniz. Bu qəsəbənin təməlini siz qoymusunuz.

**Mehriban Əliyeva:** Bəli, açılışında da iştirak etmişik.

**Sakin:** Mən keçmiş Qarabağ müharibəsi döyüşçüsüyəm. Son zamanlar ölkədə gedən proseslər, sosial müavinətlərin artırılması bizi çox sevindirir. Qarabağ müharibəsi veteranlarının, əlillərinin müavinətlərini 50 faiz artırdığına görə möhtərəm Prezidentimizə təşəkkür edirik. Bizim burada yaşayışımız yaxşıdır, narazılığımız yoxdur. Gözəl mənzillərlə təmin olunmuşuq. Qarabağ döyüşçüsü kimi Ali Baş Komandanın apardığı siyasəti dəstəkləyirəm. Eyni zamanda, döyüşçü yoldaşlarım da. Möhtərəm Prezidentimiz lazım bilsə, hər zaman torpaqlarımızı azad etməyə hazırıq. Amma, eyni zamanda, indiki vəziyyəti təhlil edəndə görürük ki, Azərbaycan Qafqazda lider dövlətdir, dünyada söz sahibidir. Bizim bu vəziyyətə düşməyimiz keçmiş hakimiyyətin təqsiridir. Biz onun bəlasını indi də çəkirik.

**Mehriban Əliyeva:** Düz deyirsiniz, o zaman Heydər Əliyev iqtidarda olsaydı, heç vaxt belə hadisə olmazdı, heç vaxt buna imkan verməzdi.

**Sakin:** Əgər Heydər Əliyev hakimiyyətə həmin illərdə gəlsəydi, bu bəlalar bizə qismət olmazdı. Mən Sizə, cənab Prezidentə ulu öndərimiz Heydər Əliyevin yolunu davam etdirdiyinizə görə dərin təşəkkürümü bildirirəm. Allah Sizin və möhtərəm Prezidentimizin canını sağ eləsin.

**Mehriban Əliyeva:** Çox sağ olun. Mənim də təşəkkürümü qəbul edin. Bilin ki, həm Prezidentin, həm mənim ürəyimdə daim sizə qarşı böyük hörmət, böyük məhəbbət, böyük istək var. Bütün problemlərin həlli ağır və uzun prosesdir. Böyük maliyyə dəstəyi lazımdır. Biz də istəyirik problemlər daha tez həll olunsun, bu planda olan bütün tədbirlər həyata keçirilsin. Amma yenə də qeyd edirəm, iradə var, bütün bu problemlər ardıcıl olaraq həll ediləcək. Bunu hər bir vətəndaşımız, xüsusilə də işğaldan, münaqişədən əzab çəkən, öz doğma torpaqlarından qaçqın düşən, öz doğma evlərini itirən, uzun illərdir ki, çətin vəziyyətdə yaşayan insanlar çox yaxşı başa düşürlər. Ona görə bu insanlara, sizlərə kömək etmək bizim ən əsas və ən vacib vəzifəmizdir. Bilin ki, fəaliyyətimdə mənim üçün ən vacib, ən mühüm güc mənbəyi məhz sizinlə, insanlarla ünsiyyətdə olmaqdır. Mən sizin sevginizi, dəstəyinizi hiss edəndə daha inamlı oluram. Mənim üçün böyük şərəfdir ki, insanlar mənə dəstək verir, məni sevir, mənə inanır. Sizi əmin etmək istəyirəm ki, mən sizin etimadınızı doğruldacağam. Çox sağ olun.

**Sakin:** Allah sizə, Prezidentimizə cansağlığı versin.

**Mehriban Əliyeva:** Çox sağ olun, Prezidentin də böyük salamlarını sizə çatdırıram. İnşallah, Qarabağda biz eyni belə gözəl mənzillərdə görüşək.

**Sakin:** İnşallah.

Birinci vitse-prezidentin adından Şəmsiyyə Mehdiyevanın ailəsinə hədiyyələr təqdim edildi.

Mehriban Əliyeva buradakı digər mənzillərdə yaradılan şəraitlə də yaxından tanış oldu.

Yaşayış kompleksində ümumilikdə 1026 məcburi köçkün ailəsi mənzillə təmin olunub.

# BİRİNCİ VİTSE-PREZİDENT: "Bir daşa da ziyan dəyməməlidir"

Əvvəli 1-ci səh.

Şirvan-Abşeron memarlıq məktəbinin ən məşhur nümunəsi olan İçərişəhərin UNESCO-nun Dünya İrs Siyahısına daxil edilməsi Azərbaycan xalqının bəşər mədəniyyətinə töhfələr verdiyini bir daha təsdiqləyir.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin sədri Əsgər Ələkbərov Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevaya görülən işlərlə bağlı ətraflı məlumat verdi. Bildirildi ki, qoruq ərazisində mövcud olan tarix və mədəniyyət abidələrinin qorunması, memarlıq-estetik görünüşünün və uzunömürlülüyünün təmin edilməsi üçün daimi olaraq müvafiq tədbirlər həyata keçirilir. Hazırda İdarə tərəfindən Kiçik Qala küçəsində, Qala divarları boyunca yerləşən kafe və restoranların yenidən qurulması işləri həyata keçirilir.

Aparılan təmir-bərpa işləri Qoşa Qala divarlarına heç bir zərər vurmamaqla yanaşı, nə İçərişəhərin, nə də Qala divarlarının görünüşünə xələl gətirməyəcək və o, əvvəlki görünüşünü saxlayacaq.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva da bildirdi ki, İçərişəhər Azərbaycan xalqı üçün doğma və əziz yerdir.

Birinci vitse-prezident **Mehriban Əliyeva** dedi:

- İçərişəhər bütün Azərbaycan üçün, bizim bütün vətəndaşlarımız üçün çox doğma və əziz yerdir. Bakımızın, doğma Bakımızın ürəyidir. Bu, doğrudan da, çox dəyərli tarixi və mədəni abidədir. Mənim yadımdadır, xatırlayıram, bir zamanlar İçərişəhər UNESCO-nun qara siyahısına salınmışdı. Çünki burada bərpa işləri aparılmırdı. Bütün bu qanunlara zidd hərəkətlər olub. O zaman məhz Prezidentin göstərişi ilə İçərişəhərdə bir çox işlər, bərpa, yenidənqurma işləri aparıldı. Sakinlərin, sahibkarların məramları nəzərə alınaraq İçərişəhərin hər binasına, hər bir daşına dövlət tərəfindən böyük diqqətlə yanaşıldı. Mənim yadımdadır, Novruz bayramında cənab Prezidentlə bizim burada gəzintimiz oldu və sakinlərlə ünsiyyətdə olduq. Fəxr edirik ki, bizim Bakımızın belə İçərişəhəri var. Əlbəttə, mən əminəm ki, bu, hər bir azərbaycanlının ürəyində yaşayan bir hissdir. Təbii ki, Qala divarının heç bir daşına da ziyan vurmaq olmaz və heç zaman vurulmayacaq.





Bilirsiniz, mən indi bu sosial şəbəkələrdə, informasiya məkanında yayılan yalanlar, böhtanlar, qarayaxma kampaniyaları aparan insanlar haqqında danışmaq istəmirəm. Mən bir şeyi qeyd etmək istəyirəm. Hər insan öz vicdanı və Allah qarşısında cavab verir. Ona görə mən əminəm ki, pis niyyətlə, təxribatla, nifrət hissi ilə heç vaxt yaxşı bir nəticə əldə etmək mümkün deyil. Vətənimizə, vətənimizin hər bir mədəni abidəsinə, tarixinə, dininə yalnız və yalnız xoş niyyət, mərhəmət, sevgi bəsləməliyik. İnsanlarımız bunu çox gözəl bilir, çox gözəl hiss edir. Ona görə mən bu gün şəxsən bura gəldim. Mən bilirdim, bütün bu hadisələrin gedişatı haqqında məndə məlumat var idi. Amma mən yenə də sahibkarlarla görüşmək istəyirdim. Bir daha əmin olmaq istəyirdim ki, yeni heç bir inşaat yoxdur. Buradakı tarixi və mədəni abidələrə heç bir təhlükə yoxdur. Əksinə, bütün bu addımlar onların qorunmasına yönəlib.

Burada yeni aşkar olunmuş tarixi abidəmiz - hamam bərpa olunur. Onu da qeyd etmək istəyirəm ki, son illər İçərişəhərdə Qala divarı üzərində aparılan bütün bərpa işlərinə bu sahədə ən aparıcı ekspertlər də cəlb olunub. Bu da çox gözəl bir haldır. Ona görə siz bir daha nəzarət edin. Birincisi, əlbəttə, biz İçərişəhərimizi çox qorumalıyıq, çox diqqətli olmalıyıq. İkincisi, İçərişəhərdə yaşayan sakinlərin maraqları nəzərə alınmalıdır. Eyni zamanda, mən əminəm ki, sahibkarlar üçün də bura doğma, əziz və ölkəmizin ən vacib tarixi abidələrindən biridir. Siz də yanaşmalarınızı məhz bu səmtdə qurmalısınız.

Bir də onu qeyd etmək istəyirəm ki, gələcəkdə belə hallarla üzləşməmək üçün biz gərək ictimaiyyətə dolğun, geniş informasiya verək. Hətta İçərişəhərdə hansısa bir bərpa, təmir işinin aparılması nəzərdə tutulubsa, bu işləri başlamamışdan əvvəl biz ictimaiyyətə geniş şəkildə məlumat verməliyik. Onda biz belə halların qarşısını alarıq. Mən çox yaxşı başa düşürəm, insanlar narahat olublar. Çünki 1954-cü ildə dağılmış divarın rəsmlərini qəsdən indi qoyub və bugünkü hal kimi təqdim ediblər. Mən yenə də deyirəm, o insanlar haqqında danışmaq istəmirəm. Amma mən narahat olan o biri insanları çox yaxşı başa düşürəm. Belə hallarla, belə yalanlarla üzləşməmək üçün biz gərək özümüz bütün informasiyanı dolğun şəkildə ictimaiyyətə təqdim edək. İşlər başlamamışdan əvvəl təqdim edək ki, belə işlər görülməlidir, niyə görülməlidir, necə görülməlidir. O zaman hər şey də yaxşı olacaq. Ona görə bir daha deyirəm, bir daşa da ziyan dəyməməlidir. İçərişəhərimiz gözəldir, bizim sərvətimizdir, bundan sonra biz onu qoruyub saxlayacağıq, gələcək nəsillərə eyni şəkildə təhvil verəcəyik.

❖ ❖ ❖

Sonra birinci xanım Mehriban Əliyeva "BBC News" Azərbaycanın müxbirinin "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğunda görülən işlərlə bağlı suallarını cavablandırdı.

Birinci xanım Mehriban Əliyevaya məlumat verildi ki, Kiçik Qala küçəsində, Qala divarları boyunca yerləşən kafe və restoranların təmiri işlərinin yay aylarında başa çatdırılması nəzərdə tutulur.

Birinci vitse-prezident Mehriban Əliyeva burada aparılan işlərin yüksək səviyyədə həyata keçirilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.

# Azərbaycanın pravoslav xristian icmasına

Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın bütün xristian icmasını müqəddəs Pasxa bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, xoşbəxtlik və əmin-amanlıq arzularımı yetirirəm.

Yüz illər boyu Azərbaycanda müxtəlif dinlərin və xalqların nümayəndələrinin sülh, qarşılıqlı hörmət və etimad şəraitində yaşaması müasir dünyada ölkəmizi nümunəvi tolerantlıq məkanı və multikulturalizm mərkəzlərindən biri kimi tanıtmışdır. Etnik-dini müxtəlifliyin və multikultural ənənələrin qorunub saxlanılması və təşviqi dövlət siyasətimizin prioritet istiqamətlərindən biridir. Azərbaycanın bu sahədə zəngin təcrübəsi açıq şəkildə göstərir ki, multikulturalizm cəmiyyətdə həmrəyliyi, harmoniyanı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, bu gün cəmiyyətimizin ayrılmaz hissəsi olan xristian icması digər dini etiqadların mənsubları ilə birgə respublikamızın tərəqqisi naminə həyata keçirilən böyük quruculuq işlərində, ictimai-siyasi və sosial-mədəni həyatımızın bütün sahələrində yaxından iştirak edir. Əminəm ki, xristian həmvətənlərimiz bundan sonra da ümumi evimiz olan Azərbaycanın daha da güclənməsi naminə səylərini əsirgəməyəcəklər.

Dirçəlişi, yeniliyi, mərhəmət və şəfqət duyğularını təcəssüm etdirən Pasxa bayramı insanların qəlbində inam və gələcəyə ümid hissi oyadır, onları xeyirxahlığa yönləndirir. Bu əziz gündə bir daha sizə xoş bayram ovqatı, ailələrinizə sevinc və rifah arzulayıram.

Bayramınız mübarək olsun!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 26 aprel 2019-cu il*

# Syerra-Leone Respublikasının Prezidenti zati-aliləri cənab Culius Maada Bioya

Hörmətli cənab Prezident!

Syerra-Leone Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Bu əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2019-cu il*

# Cənubi Afrika Respublikasının Prezidenti zati-aliləri cənab Matamela Siril Ramafozaya

Hörmətli cənab Prezident!

Cənubi Afrika Respublikasının milli bayramı - Azadlıq Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza əmin-amanlıq və rifah diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2019-cu il*

# Niderlandın Kralı Əlahəzrət Villem-Aleksanderə

Əlahəzrət!

Ölkənizin milli bayramı - Kral Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Niderland xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 aprel 2019-cu il*

# *Ərəstun MEHDİYEV:* "Tarixi yenidən yazmaq cəhdlərini qəti şəkildə pisləməliyik"

**Sankt-Peterburqdakı B.Yeltsin adına Prezident Kitabxanasında Böyük Vətən müharibəsində Leninqradın blokadadan tam azad edilməsinin 75-ci ildönümünə həsr olunmuş "Birlikdə qazanılan böyük qələbə" mövzusunda beynəlxalq forum keçirilib.**



AZƏRTAC xəbər verir ki, Avrasiya Tədqiqatları Fondu, "Şimal-Cənub" Politologiya Mərkəzinin MDB ölkələri Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondunun (DHƏF) dəstəyi ilə təşkil etdikləri foruma 250-dən çox iştirakçı, o cümlədən Azərbaycan Prezidenti Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyevin rəhbərliyi ilə ölkəmizdən geniş tərkibli nümayəndə heyəti qatılıb.

Tədbirin açılışında Rusiya Prezidenti Vladimir Putinin forum iştirakçılarına ünvanladığı təbrik məktubu oxunub. Forumun plenar iclasında Sankt-Peterburqun qubernatoru vəzifəsini icra edən Aleksandr Beqlov, Rusiya Prezidentinin beynəlxalq humanitar əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy, Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu və başqaları çıxış edərək keçmiş sovet respublikaları xalqlarının Böyük Vətən müharibəsində nümayiş etdirdikləri birlik və şücaətdən danışıblar.

Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev çıxışında qeyd edib ki, Leninqradın müdafiəsi Böyük Vətən müharibəsinin qəhrəmanlıq səhifələrindən biridir. Leninqradın müdafiəçiləri dünyaya görünməmiş yenilməzlik və fədakarlıq nümayiş etdiriblər. Ərəstun Mehdiyev Azərbaycanın alman faşizminin darmadağın edilməsinə layiqli töhfə verdiyini, 700 minə yaxın azərbaycanlının düşmənə qarşı mərdliklə vuruşduğunu, cəbhə üçün lazım olan yanacağın 80 faizinin Bakı neftçiləri tərəfindən təmin edildiyini vurğulayıb. Diqqətə çatdırıb ki, azərbaycanlı əsgər və zabitlər bütün cəbhələrdə, o cümlədən Leninqrad cəbhəsində rəşadətlə vuruşublar. "Həlak olmuş həmvətənlərimizin xatirəsi əbədiləşdirilib, Piskaryov məzarlığında onların xatirə lövhəsi qoyulub. Leninqradın blokadası dövründə baş vermiş bir hadisəni də xatırlamaya bilmirəm. Müharibənin ən qızğın dövründə, 1941-ci ildə Leninqradda, Ermitajda dahi Azərbaycan şairi Nizami Gəncəvinin 800 illik yubileyi qeyd olunmuşdu. Bu, peterburqluların zəngin daxili aləminin və nəcibliyinin daha bir nümunəsidir", - deyə Ərəstun Mehdiyev bildirib. O xatırladıb ki, bu gün Leninqrad blokadasının şahidləri dünyanın müxtəlif ölkələrində yaşayırlar. Onların arasında taleyini Azərbaycana bağlayanlar da var. Lakin zaman durmadan irəliləyir və təəssüf ki, indi Azərbaycanda blokadanın cəmi 9 şahidi qalıb. Ölkəmizdə müharibə veteranlarına daim xüsusi qayğı ilə yanaşılır. Qələbə bayramı ərəfəsində Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamı ilə müharibə veteranlarına, blokada dövrünü yaşamış Leninqradın müdafiəçilərinə birdəfəlik müavinətlər ödənilir, "Əbədi alay" aksiyası və digər tədbirlər keçirilir.

Ərəstun Mehdiyev təəssüflə qeyd edib ki, son illər müxtəlif ölkələrdə Böyük Vətən müharibəsində sovet xalqının fədakarlığı haqqında həqiqətləri təhrif etmək, nasizmə, faşist cəlladlarının havadarlarına bəraət qazandırmaq meyilləri ilə üzləşirik. O deyib: "Bu, yolverilməzdir. Biz səylərimizi birləşdirib, tarixin saxtalaşdırılması halları ilə mübarizə aparmalı, Qələbənin əhəmiyyətini kiçiltmək, tarixi yenidən yazmaq cəhdlərini qəti şəkildə pisləməliyik".

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Prezident İlham Əliyevin tapşırığına əsasən, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin həllinə kömək göstərirlər.

Növbəti belə qəbul aprelin 26-da Şəki Mərkəzi Rayon Xəstəxanasında keçirilib.

Qəbul zamanı nazir Oqtay Şirəliyev Şəki, Balakən, Zaqatala, Oğuz və Qaxdan olan vətəndaşların sağlamlıq problemləri, işlə təminat və s. məsələlərlə bağlı müraciətlərini dinləyib.

Vətəndaş müraciətlərində qaldırılan məsələlər nazirliyin müvafiq qurumlarının əməkdaşlarının iştirakı ilə araşdırılıb. Müraciətlərin bəziləri yerindəcə həllini tapıb.

Nazirliyin səlahiyyətlərinə aid olmayan məsələlər aidiyyəti üzrə çatdırılması üçün qeydiyyata alınaraq nəzarətə götürülüb.

***

Kənd təsərrüfatı naziri İnam Kərimov aprelin 26-da Zaqatala Dövlət Aqrar İnkişaf Mərkəzinin inzibati binasında Zaqatala, Qax, Şəki, Oğuz, Balakən və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Nazirliyin idarə və tabeli qurumlarının rəhbərlərinin iştirakı ilə keçirilən qəbulda 49 nəfərin müraciətinə baxılıb. Qəbula gələn vətəndaşların müraciəti əsasən fermerlərə güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı texnikası və təsərrüfat suyu ilə təminat, ixtisasa uyğun işlə təmin edilmə və digər məsələlərlə bağlı olub. Nazir İnam Kərimov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

# Cəbhəboyu zonada tikintisi davam etdirilən hərbi obyektlərdə inşaat işlərinin gedişi yoxlanılıb







Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, şəxsi heyətin xidmət, eləcə də sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə hərbi hissələrdə inşaat və təmir-bərpa işləri intensiv şəkildə davam etdirilir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nazir, general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti cəbhəboyu zonada tikilməkdə olan bir neçə hərbi hissədə olub.

Məruzə edilib ki, ilin sonunadək istifadəyə veriləcək 10-a yaxın hərbi şəhərcikdə su, qaz, istilik və digər kommunikasiya sistemləri ilə təmin olunan qərargahlar, əsgər yataqxanaları, yeməkxanalar, döyüş texnikası üçün saxlanclar, digər inzibati bina və qurğular yaradılacaq. Bununla yanaşı, hərbi qulluqçuların yüksək səviyyədə xidməti-döyüş fəaliyyəti göstərmələri üçün müvafiq məişət və ictimai iaşə obyektləri, o cümlədən qazanxana, camaşırxana və hamamxana kompleksləri, tibb məntəqələri və digər infrastruktur obyektləri də nəzərdə tutulub.

General-polkovnik Z.Həsənov yeni inşa edilən artilleriya hərbi hissəsi, hərbi hospitalda və digər hərbi obyektlərdə aparılan tikinti işlərinin gedişini yoxladıqdan sonra inşaat işlərinin keyfiyyətlə aparılması ilə əlaqədar müvafiq tapşırıq və tövsiyələrini verib.

# Aqrar sığorta ilə bağlı yeni qanun layihəsi hazırlanıb

Aprelin 26-da Milli Məclisin Aqrar siyasət komitəsinin iclası keçirildi. Gündəlik barədə məlumat verən komitənin sədri Eldar İbrahimov ilk olaraq "Aqrar sığorta haqqında" qanun layihəsini (birinci oxunuş) müzakirəyə təqdim etdi.

Qanun layihəsi Azərbaycan Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında Milli Məclisə təqdim olunub. İclasda diqqətə çatdırıldı ki, qüvvədə olan "Kənd təsərrüfatında sığortanın stimullaşdırılması haqqında" qanunun kənd təsərrüfatında sığortanı tam şəkildə əhatə etməməsi, ölkəmizdə riskləri yüksək olan kənd təsərrüfatı sahəsində ixtisaslaşmış sığorta şirkətinin olmaması və digər amillər hazırda bu sahədə sığorta mexanizminin işləməməsinə səbəb olub. Ona görə də aqrar sığorta ilə bağlı işlək mexanizmi təmin edən yeni qanın layihəsinin hazırlanmasına ehtiyac yaranıb.

Bu məqsədlə Kənd Təsərrüfatı və Maliyyə nazirlikləri, Maliyyə Bazarlarına Nəzarət Palatası və digər dövlət orqanlarının nümayəndələrindən ibarət yaradılmış İşçi qrupu tərəfindən dünyada mövcud olan aqrar sığorta modelləri araşdırılıb və "Aqrar sığorta haqqında" qanun layihəsi hazırlanıb. 4 fəsil 21 maddədən ibarət layihədə aqrar sığortanın hüquqi, iqtisadi və təşkilati əsasları ilə bağlı məsələlər əksini tapıb.

Müzakirələr zamanı Aqrar siyasət komitəsinin sədr müavini Eldar Quliyev, komitənin üzvləri Hüseynbala Mirələmov, İqbal Məmmədov, Aydın Hüseynov, Novruzəli Aslanov layihə ilə bağlı fikirlərini bildirdilər. Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova qaldırılan məsələlərə aydınlıq gətirdi.

Yekunda qanun layihəsi birinci oxunuşda müzakirə olunmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olundu.

İclasda "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə (üçüncü oxunuş), "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində və Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində dəyişiklik edilməsi haqqında" (üçüncü oxunuş), "Meliorasiya və irriqasiya haqqında", "Əhalinin radiasiya təhlükəsizliyi haqqında" "Balıqçılıq haqqında", "Elektroenergetika haqqında" və Nəqliyyat haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (üçüncü oxunuş), "İctimai iştirakçılıq haqqında", "Dəniz limanları haqqında", Yaşıllıqların mühafizəsi haqqında" və "Tikinti və infrastruktur obyektləri ilə əlaqədar investisiya layihələrinin xüsusi maliyyələşmə əsasında həyata keçirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (üçüncü oxunuş), "Kənd təsərrüfatı kooperasiyası haqqında", "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında", "Turizm haqqında" və "Elektrik və istilik stansiyaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (üçüncü oxunuş) və "Auditor xidməti haqqında", İnvestisiya fəaliyyəti haqqında", "Müflisləşmə və iflas haqqında", "Kiçik sahibkarlığa dövlət himayəsi haqqında", "Yeyinti məhsulları haqqında", "Notariat haqqında", "Kredit ittifaqları haqqında" və "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" (üçüncü oxunuş) qanun layihələri də Milli Məclisin plenar müzakirəsinə tövsiyə olundu.

* * *

"Aqrar sığorta haqqında"(birinci oxunuş) yeni qanun layihəsi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında da müzakirə mövzusu oldu.

Komitə sədri Ziyad Səmədzadə bildirdi ki, hazırda Azərbaycanda sığorta bazarında dinamik iş gedir. Ancaq buna baxmayaraq, sığorta bazarında bəzi problemlər də mövcuddur. Yeni hazırlanan sənəd isə bu sahədəki boşluqların aradan qaldırılmasına müsbət təsirini göstərəcək. Komitə sədrinin sözlərinə görə, bu gün aqrar sığortanın tətbiqi yeni hadisədir və qanun layihəsi bu istiqamətdə mühüm bir addımdır:

"Hesab edirəm ki, təbii fəlakətlərlə bağlı risklərin bir hissəsi sığorta şirkətlərinin üzərində olmalıdır. "Aqrar sığorta haqqında" qanun layihəsi bu istiqamətdə mühüm bir addımdır. İlk növbədə biz təbii risklərdən özümüzü qorumalıyıq. Eyni zamanda, mübahisə doğuran məsələlər var. Azərbaycan cəmiyyəti üçün ən vacib məsələlərdən biri "Aqrar sığorta haqqında" qanundur. Bu qanun layihəsi çox vacibdir. Neçə ildir ki, qanun layihəsi haqqında danışıqlar gedir. Son illər Kənd Təsərrüfatı Nazirliyi ilə bağlı həyata keçirilən struktur islahatları əminlik yaradır ki, Azərbaycanın aqrar sektorunda müsbət meyillər özünü göstərəcək".

Aqrar sığortanın tətbiqi üçün ilkin mərhələdə təxminən 9 milyon manat nizamnamə kapitalına ehtiyac olacaq. Bunu isə Kənd Təsərrüfatı Nazirliyinin yanında Aqrar Kredit və İnkişaf Agentliyinin sədri Mirzə Əliyev söylədi. Onun fikrincə, bu sahədə subsidiyalaşdırma üçün 1-ci il 8,5 milyon manat, 2-ci il 10 milyon manat, növbəti illərdə 12,5 - 13 milyon manat vəsait lazım olacaq. Aqrar sığorta mexanizminin tam gücü ilə işləyəcəyi 10-cu ildən sonra isə həmin məbləğ azalacaq. Çünki bu növ sığorta özünü maliyyə cəhətdən təmin edəcək.

Müzakirələr zamanı çıxış edən deputat Tahir Mirkişili sənədi kənd təsərrüfatı sahəsində aparılan islahatların tərkib hissəsi adlandıraraq dedi ki, qanun çərçivə sənədi kimi çox əhəmiyyətlidir. Deputat qanunda stimullaşdırma ilə bağlı məsələlərin də yer almasının tərəfdarıdır. Qanunun icrasında bu məsələnin nəzərə alınması çox vacibdir. Layihə kənd təsərrüfatı sahəsinin inkişafı üçün mühüm sənəd olacaq.

Deputat Əli Məsimli isə hesab edir ki, kənd təsərrüfatında risklər sığortalanmadan bu sahəyə sərmayə qoyulması qeyri-mümkündür. Ona görə də bu sənəd fermerlərin marağını daha da artıracaq və kənd təsərrüfatında yüksəliş baş verəcək.

Deputatlardan Xanhüseyn Kazımlı, Rüfət Quliyev, Aydın Hüseynov layihə ilə bağlı təkliflərini səsləndirdilər. Deputat Vahid Əhmədov isə sənədin bir daha yenidən işlənməsinin vacibliyini söylədi. Onun fikrincə, sənədlə bağlı İşçi qrupu da yaradıla bilər.

İclasda, həmçinin "Dövlət rüsumu haqqında" qanuna dəyişiklik barədə layihə də müzakirəyə çıxarıldı. Dəyişiklik "Aqrar sığorta haqqında" qanun əsasında yaradılması nəzərdə tutulan aqrar sığorta orqanının elektron informasiya sistemləri vasitəsilə real rejimdə əldə edəcəyi məlumat və informasiyalarla əlaqədardır.

Sənədlər müzakirə olunması üçün Milli Məclisin plenar iclasına tövsiyə olundu.

***Rəşad CƏFƏRLİ,***
***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Paytaxtın inkişafı mərkəzdən kənarlara doğru irəliləyir

## Bakı Şəhər İcra Hakimiyyətində geniş müşavirə keçirilib

Bakı Şəhər İcra Hakimiyyətində Fövqəladə Hallar Nazirliyi, Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Dövlət Reklam Agentliyi, Bakı Nəqliyyat Agentliyi nümayəndələrinin, şəhər icra hakimiyyətinin strukturuna daxil olan təsərrüfat xidmətlərinin rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirilib.

Şəhər icra hakimiyyətindən AZƏRTAC-a verilən məlumata görə, müşavirədə ölkə rəhbərinin siyasəti nəticəsində Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrildiyi qeyd edilib, paytaxtın mərkəzi hissəsində vəziyyətin nümunəvi olduğu vurğulanıb, bəzi ətraf ərazilərdə, xüsusilə əhalinin, ticarət obyektlərinin və nəqliyyat vasitələrinin sıx olduğu ərazilərdə bir sıra problemlərin mövcud olduğu bildirilib.

Müşavirədə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırıq və tövsiyələrinə uyğun olaraq paytaxtın sıxlıq müşahidə olunan ətraf ərazilərində yanğın təhlükəsizliyinin təmin olunması, yanğınsöndürmə nəqliyyat vasitələrinin obyektlərə sərbəst yetişməsi, tıxacların aradan qaldırılması və bu ərazilərin memarlıq üslubunun və estetik görünüşünün müasir standartlar səviyyəsinə çatdırılması məqsədilə müvafiq tədbirlər görüləcək. Bu məqsədlə aidiyyəti qurumların nümayəndələrindən ibarət qərargah yaradılıb. Qərargah üzvləri artıq küçələrin və buradakı obyektlərin inventarlaşmasına başlayıblar. İlkin olaraq Xətai rayonu, Məhəmməd Hadi küçəsi və Nizami rayonu, Qara Qarayev prospektində bu işlərə başlanılıb. İnventarlaşmanın nəticəsinə uyğun müvafiq tədbirlər planı hazırlanıb həyata keçiriləcək.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vurğulayıb ki, ölkə rəhbərliyinin tapşırığına uyğun olaraq bu işlərin həyata keçirilməsi zamanı heç bir sahibkar zərər çəkməməli, onların mənafelərinə uyğun əməkdaşlıq olmalıdır.

# İpotekanın dövlət qeydiyyatına alınması və ləğvi: *xidmət prosedurları elektron formada həyata keçirilir*

Daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatı dedikdə, onun ipotekası haqqında müqavilənin daşınmaz əmlakın dövlət reyestrində qeydə alınmasıdır. İpoteka hüququ ipoteka müqaviləsinin dövlət qeydiyyatına alındığı andan əmələ gəlir. Daşınmaz əmlakın, o cümlədən tikintisi başa çatdırılmamış obyektin ipotekası haqqında müqavilənin dövlət qeydiyyatına alınması zamanı ipotekanın predmeti, ipoteka ilə təmin edilmiş borcun (öhdəliyin) icra müddəti, ipotekasaxlayan və ipotekaqoyan barədə məlumat qeyd edilir.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatına alınması və bu qeydiyyatın ləğvi ilə bağlı xidmətlər həyata keçirilir. Hüquqi və fiziki şəxslər bu istiqamətdə xidmətlərdən Əmlak Xidmətləri Mərkanında, Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin regional ofislərində və elektron formada istifadə edə bilərlər. İpotekanın dövlət qeydiyyatına alınması və ləğvi xidmətlərinə müraciətlərin qəbul edilməsi, işin icra tarixi barədə bildirişlərin verilməsi, işin icrasından imtina edildiyi hallarda bu barədə xidmət istifadəçisinin məlumatlandırılması aiddir.

İpotekanın dövlət qeydiyyatına alınmasını elektron xidmət vasitəsilə daha rahat formada həyata keçirmək mümkündür. Bunun üçün istifadəçi Əmlak Məsələləri Dövlət Komitəsinin Elektron Xidmətlər Portalında 15-ci bölməyə daxil ola bilər. Elektron formada və ya ünvanlarda xidmətdən istifadə etmək üçün tələb olunan sənədlərə şəxsiyyəti təsdiq edən sənəd, daşınmaz əmlakın ipotekası haqqında müqavilə, ərizə, xidmət haqqı və dövlət rüsumunun ödənilməsi barədə sənəd və digərləri aiddir. İpotekanın dövlət qeydiyyatına alınması xidməti 3 iş günü ərzində həyata keçirilir, 20 manat dövlət rüsumu və 20 manat xidmət haqqı tələb olunur. Xidmətin nəticəsi olaraq ipotekanın dövlət qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən çıxarış hüquq sahibinə təqdim edilir və ya elektron imza ilə təsdiqlənməklə "Elektron hökumət" portalında yerləşdirilərək hüquq sahibinin elektron üsulla əldə etməsi imkanı təmin olunur.

İpotekanın dövlət qeydiyyatının ləğvi ipoteka saxlayanın ərizəsi və ya məhkəmənin qərarı əsasında qeydiyyat orqanı tərəfindən ləğv edilir. Bu xidmətdən istifadə elektron formada da mümkündür. İstifadəçi Əmlak Məsələləri Dövlət Komitəsinin Elektron Xidmətlər Portalında 16-cı bölməyə daxil ola bilər. Xidmət göstərilməsi üçün tələb olunan sənədlərə məhkəmə qərarı, ərizə, xidmət haqqı və dövlət rüsumunun ödənilməsi barədə sənəd və digərləri aiddir. İpotekanın dövlət qeydiyyatının ləğvi xidməti 3 iş günü ərzində həyata keçirilir, 10 manat dövlət rüsumu və 20 manat xidmət haqqı tələb olunur. Nəticədə ərizəçiyə daşınmaz əmlakın ipotekasının dövlət qeydiyyatının ləğvinə dair arayış təqdim edilir.

***"Azərbaycan"***



# Prezidentin gənclərə inamı və böyük etimadı var

Əvvəli 1-ci səh.

Onların inkişaf yolundakı maneələri ortadan götürdü. Bu nəslin işlə, mənzillə təminatı, öz həyatını qura bilməsi, vəzifə pillələrində irəli çəkilməsi, cəmiyyətdə nüfuz sahibi olması ulu öndərin əvəzsiz qayğısının nəticəsi idi. Böyük rəhbər gəncləri ölkənin ictimai-siyasi həyatında fəal olmağa çağıraraq yaxın gələcəkdə daha dinamik inkişaf yoluna qədəm qoyacaq Azərbaycanın sonrakı uğurlarını bu nəslə göstərilən etimadda görürdü. Gənclərin vətənpərvərlik ruhunda tərbiyəsini və ümumi fəaliyyətə cəlb edilməsini mühüm vəzifə kimi ortaya qoyurdu.

Ümummilli liderin irəli sürdüyü milli dövlətçilik kursu isə ölkə gənclərinə imkan verdi ki, öz əzmkarlıqlarını, yüksək potensiallarını cəmiyyət həyatının bütün sahələrində reallığa çevirib ən böyük tarixi qələbələri Azərbaycan dövlətinin qüdrəti ilə qazansınlar.

## Milli düşüncə və xeyirxah əməllərə çağırış

Dövlət gənclər siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan dövləti qloballaşma dövründə həm milli dəyər və maraqlara, həm də beynəlxalq təcrübəyə uyğun gənclər siyasəti yürüdür. Onları ölkəmizdə gedən inkişaf proseslərinin həm əsas hərəkətverici qüvvəsi, həm də bundan fəal şəkildə bəhrələnən sosial qrup kimi qəbul edir. Son illər gənclər siyasəti və gənclərlə iş sahəsində əldə edilən bir sıra mühüm nəticələr bunun bəhrəsidir.

Ölkə rəhbəri daim müxtəlif toplantılarda gənclərlə görüşüb fikir mübadiləsi aparır, onların istəklərini, bu sosial təbəqəni qayğılandıran məsələləri, təklifləri dinləyir. Bu sahədə fəaliyyət göstərən dövlət qurumları qarşısında konkret vəzifələri müəyyənləşdirir. Hər görüş bir hadisəyə çevrilir. Arada heç bir maneə, sədd olmadan, isti kəlmələrlə ifadə edilən doğmalıq, qarşılıqlı hörmət, saygı ilə... Bu səmimi görüşlər indi tarixinin ən qüdrətli mərhələsində olan Azərbaycanın gücünə güc qatır.

Bu il fevralın 1-də Gənclər Gününə həsr olunmuş respublika toplantısında iştirakı zamanı dövlət rəhbərinin xatırlatdığı kimi, 2005-ci ildən bugünə qədər gənclərlə bağlı üç dövlət proqramı qəbul edilib. Bölgələrdə 40-a yaxın Gənclər evi yaradılıb, 44 olimpiya idman mərkəzi gənclərimizin istifadəsinə verilib. Son illər Bakıda və regionlarda yaradılan bu cür Gənclər evi və olimpiya idman mərkəzləri yeniyetmə və gənclərimizin maraq dairəsini genişləndirir. Onların asudə vaxtlarının mənalı və səmərəli təşkilinə böyük imkanlar yaradır. Gəncləri pis vərdişlərdən, ziyanlı təsirlərdən qoruyur. Onlar üçün qarşılıqlı inkişaf mühitini təmin edir.

Prezident İlham Əliyev Gənclər Gününə həsr olunmuş toplantıda gənc yaşlarındakı fəaliyyətini nümunə göstərdi və yeni nəslə çağırış etdi:

- *Ölkəmizin gələcəyinin sizin əlinizdə olduğunu unutmayın;*
- *ən ağır dövrdə, ən çıxılmaz vəziyyətdə belə ümidinizi itirməyin;*
- *təhsilə böyük əhəmiyyət verin;*
- *peşəkar və fəal olun;*
- *milli ruhda, vətənpərvərlik ovqatında tərbiyə alın;*
- *dövlət maraqlarını, milli mənafeyi, müstəqilliyi layiqincə qoruyun.*

Hazırda dövlət gənclər siyasətində istedadlı gənclərin müəyyən edilməsi, dəstəklənməsi və inkişafına böyük diqqət ayrılır. Təhsilli, yüksək intellektual bacarığa malik insan kapitalı formalaşdırmaqda və güclü iqtisadiyyat qurmaqda dövlətin rolu daha aktualdır. Azərbaycan Prezidenti İlham Əliyevin gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun, dövlət idarəçiliyi sistemində iştirakının təmin edilməsi məqsədilə imzaladığı "Azərbaycan gəncliyi" dövlət proqramlarının təsdiq edilməsi haqqında sərəncamları gənclərə dövlət qayğısının artırılmasına xidmət edir. Bu sənədlərdə ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətləri açıqlanmışdır: gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli ruhda təlim-tərbiyəsi, hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliği və s. öz əksini tapmışdır.

## Könüllülər hərəkatı

Məhz bu siyasət nəticəsində həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb. Gənclərimizin vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib. Ölkəmizdə könüllülük hərəkatı genişlənib. Azərbaycan Respublikası Prezidentinin də qeyd etdiyi kimi, Könüllülər hərəkatının cəmiyyətimiz üçün xüsusi əhəmiyyəti var: "Bu, cəmiyyətdə xeyirxahlıq, yeni davranış qaydalarını təbliğ edir". 2012-ci il Avroviziya Mahnı Müsabiqəsi, I Avropa Oyunları, "Formula-1" Bakı Qran-prisi və 2017-ci il IV İslam Həmrəyliyi Oyunları nəticəsində bu hərəkat daha böyük vüsət alıb. Könüllülük hərəkatının formalaşması və inkişafında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi rolu var. Onun təşəbbüsü ilə həyata keçirilən sosial-humanitar, mədəni layihələr, təşkilati işlərinə birbaşa rəhbərlik etdiyi beynəlxalq tədbirlər minlərlə gəncimizə potensiallarını reallaşdırmaq, öz imkanlarını göstərə bilmək üçün şərait yaradıb.

İndiyə qədər 20 mindən çox gənc könüllü olaraq irimiqyaslı layihələrdə çalışaraq lazımi təcrübə toplayıb. Özünə işgüzar çevrə formalaşdırıb. Bu təcrübə və sosial əlaqələr hesabına müxtəlif təşkilatlarda daimi iş taparaq karyera inkişafına qədəm qoyub.

## Gənclərə inam

Azərbaycan Prezidenti gənclərə inanır, onlara etimad göstərir. Yüksək savad və qabiliyyətə malik gənc kadrlara mühüm dövlət vəzifələri həvalə edir. Gənclərin önə çəkilməsi, müxtəlif layihələrə cəlb olunması Prezident İlham Əliyevin dövlət və özəl qurumlara da əsas tövsiyələrindəndir: "Çünki gənclərin həm potensialı, həm fəallığı, həm də məsələlərə yeni baxışları cəmiyyət üçün çox lazımdır. Bütün dövlət təşkilatlarına tövsiyə etmişəm ki, könüllüləri cəlb etsinlər".

Bu inam, gənclərə ümid, onların iştirakı ilə yaradılacaq gələcəyə baxış 2005-2009-cu, 2011-2015-ci və 2017-2021-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" dövlət proqramlarında, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, "2015-2025-ci illərdə Azərbaycan Gənclərinin İnkişaf Strategiyası"nda da öz əksini tapıb.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun yaradılması və bu fondun həyata keçirdiyi layihələr, Virtual Qarabağ İKT mərkəzinin fəaliyyətə başlaması, Gənclər evləri şəbəkəsinin fəaliyyəti, Azərbaycan Tələbə Kartının ərsəyə gəlməsi, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident mükafatının təsis edilməsi bu proqramların xoş bəhrələridir.

Hərtərəfli inkişafı stimullaşdıran bu yeni imkanlardan indiyə qədər minlərlə gəncimiz faydalanıb. Dərin savada, bacarıqlara, idarəetmə keyfiyyətlərinə malik parlaq gənclərimiz yetişib və onlar indi müxtəlif sahələrdə dövlətimizin inkişafına dəyərli töhfələr verməkdədirlər.

Bütün bunlar beynəlxalq aləmdə də diqqətlə izlənir. Azərbaycan dövlətinin həyata keçirdiyi dövlət gənclər siyasətinin uğurları öz layiqli qiymətini alır. Təsadüfi deyil ki, 2016-cı ildə qədim Gəncə şəhəri "Avropa Gənclər Paytaxtı" adına layiq görüldü. Son illər müxtəlif beynəlxalq tədbirlərə uğurla evsahibliyi edən Azərbaycanda 2017-ci ilin avqustunda 170 ölkə nümayəndələrinin iştirak etdiyi 41-ci Dünya Skaut Konfransının keçirilməsi kimi tarixi faktlar da Azərbaycanın gənclər siyasətinin uğurlarına işıq salır.

## Dəyərlərimizə sevgi

Bu gün ölkə rəhbərinin də, ümumən cəmiyyətimizin də gənclərimizdən əsas gözləntisi yüksək vətənpərvərlik ruhu, milli-mənəvi dəyərlərimizə sadiqlik, elmin, təhsilin gücü ilə insan kapitalının inkişafına töhfə vermələridir. Gənclərlə görüşləri zamanı cənab İlham Əliyevin onlara başlıca tövsiyələrindən biri məhz təhsillə bağlı olur: "Çünki bugünkü dünyada bilik, savad ön plandadır. Bu gün dünya o qədər sürətlə inkişaf edir, texnologiyalar o qədər sürətlə qabağa gedir ki, bilik, savad olmadan həyatda öz layiqli yerini tapmaq çox çətindir. Gənclər peşəkar olmalıdırlar".

Azərbaycan Prezidenti gənclərimizin milli ruhda, vətənpərvərlik ruhunda tərbiyə almalarını, dəyərlərimizə bağlılıqlarını da vacib sayır. Çünki əsrlər boyu başqa dövlətlərin, imperiyaların tərkibində bizim milli ruhumuzu, kimliyimizi qoruyan məhz dəyərlərimizdir. Bu dəyərlərimizi - ana dilimizi, mədəniyyətimizi, ədəbiyyatımızı, incəsənətimizi, adət-ənənələrimizi qlobal təsirlərdən qorumaq müstəqil Azərbaycan gəncliyinin də ümdə vəzifələrindəndir. Gələcəkdə dövlətimizin, xalqımızın milli maraqlarını yalnız milli ruhda yetişmiş gəncliyimiz qoruya bilər.

"Bu gün Azərbaycan gəncləri müstəqillik dövründə yaşayırlar. Bu, böyük xoşbəxtlikdir... Gənclər müxtəlif sahələrdə çox uğurla fəaliyyət göstərirlər, ölkəmizin ümumi inkişafına böyük töhfə verirlər" deyir Prezident İlham Əliyev.

Bu siyasət Azərbaycanda yüksək vətənpərvərlik ruhuna malik gənc nəsil yetişdirib. Onlar milli istiqlalımız, ölkəmizin ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ruhunun daşıyıcılarıdır. 2016-cı ilin Aprel döyüşlərində hər birimiz Azərbaycan gəncliyinin vətən eşqinin, yenilməzliyinin şahidi olduq. Azərbaycan gəncləri Ali Baş Komandanın əmri ilə bir yumruq kimi birləşməyə və düşməni məhv etməyə hazır olduqlarını nümayiş etdirdilər. Azərbaycan gəncliyi bu ruhu, vətən sevgisini təkcə döyüş səngərlərində deyil, beynəlxalq platformalarda, idman arenalarında, mədəniyyət tədbirlərində də parlaq şəkildə göstərir. Düşməni diplomatiya döyüşlərində də məğlubiyyətə uğradır. Bu gün onlarla Azərbaycan gənci bir sıra beynəlxalq təşkilatların rəhbərliyində təmsil olunur.

## Gəncliyə xitab

Azərbaycan gəncliyi xalqımızın qədim dövlətçilik ənənələrinin, zəngin mədəniyyətinin qorunması və təbliği, böyük şəxsiyyətlərimizin tanıdılması, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində yaşadığımız faciələrin dünya ictimaiyyətinə çatdırılması üçün bütün imkanlarından istifadə edir. Bu sevginin, fədakarlığın bariz örnəyi Azərbaycan Respublikası Prezidentinin ailəsində tərbiyə almış övladlardır. Bu gün vətənin şərəfli bir əsgəri kimi əldə silah dövlət təhlükəsizliyimizin keşiyində dayanmış gənc Heydər Əliyevin vətənpərvərlik eşqidir, Leyla və Arzu Əliyevaların Azərbaycan naminə gördükləri böyük işlərdir.

Ölkə Prezidentinin həyata keçirdiyi siyasət Azərbaycan gəncliyinə milli-dini dözümlülük, sülhsevərlik, humanizm kimi ali dəyərlər aşılayır. Gənclərin sağlamlığının qorunması və möhkəmləndirilməsi qayğısına qalır, sağlam həyat tərzini təbliğ edir. Gənc alim və tədqiqatçıların fəaliyyətini dəstəkləyir, gəncləri elmə həvəsləndirir. Ali və orta ixtisas təhsili müəssisələrində tələbələrin mütərəqqi ideya və təşəbbüslərini dəstəkləyir. Onların bilik və bacarıqlarının inkişafına kömək göstərir. Müxtəlif startap ideyalarına malik gənclərin sahibkarlıq və məşğulluq imkanlarının artırılmasına meydan verir.

Bütün bunları özündə birləşdirən gənclər siyasəti Azərbaycanı milli dövlətçilik tarixinin ən qüdrətli mərhələsinə yetirmiş Prezident İlham Əliyevin yerinə yetirdiyi tarixi missiyadır. Formalaşan milli düşüncə bizləri xoş əməllərə çağırır, iş görməyə, Azərbaycanın qüdrətini artırmağa səsləyir.

"Sizin üçün ən başlıca vəzifə müstəqilliyi, milli maraqları qorumaq, Azərbaycanı yad təsirlərdən qorumaq və xalqımızın rahat həyatını təmin etməkdir. Mən şübhə etmirəm ki, siz buna hazırsınız. Azərbaycan gəncləri fəaldır, vətənpərvərdir, biliklidir, savadlıdırlar. Gənclər, mən sizə inanıram, güvənirəm" deyir cənab İlham Əliyev.

Əksər böyük liderlərin dövlətçilik irsində gəncliyə ünvanlanmış mühüm bir çağırış da öz əksini tapıb. Prezident İlham Əliyev yüzillər əvvəl dövlətimizin istiqlalı üçün ümid dolu nəzərlərini Azərbaycan gəncliyinə dikən düşüncə adamlarımızın ümidlərini doğrultmuş, ulu öndər Heydər Əliyevin qurduğu müstəqil dövlətimizi yeni ucalıqlara yüksəltmiş həmin o gəncliyin lideridir.

Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə bu xitabı isə onun gələcəyə ünvanlanmış çağırışıdır.

Vətənin sabahı bu inamdan, bu güvəndən başlanır!

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN APARATINDA 2019-cu İLİN MAY AYINDA VƏTƏNDAŞLARIN QƏBULU CƏDVƏLİ

| | Qəbul günləri |
|---|---|
| **Ziyafət Abbas oğlu ƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini - Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri | 8 |
| **Bahar Əvəz qızı MURADOVA** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - İnsan hüquqları komitəsinin sədri | 15 |
| **Valeh Feyruz oğlu ƏLƏSGƏROV** Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini - Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri | 22 |
| **Əli Məhəmməd oğlu HÜSEYNLİ** Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri | 2 |
| **Ziyad Əliabbas oğlu SƏMƏDZADƏ** Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri | 2 |
| **Eldar Rza oğlu İBRAHİMOV** Milli Məclisin Aqrar siyasət komitəsinin sədri | 6 |
| **Hadi Musa oğlu RƏCƏBLİ** Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri | 13 |
| **Arif Qafar oğlu RƏHİMZADƏ** Milli Məclisin Regional məsələlər komitəsinin sədri | 22 |
| **İsa Əkbər oğlu HƏBİBBƏYLİ** Milli Məclisin Elm və təhsil komitəsinin sədri | 20 |
| **Rafael Baba oğlu HÜSEYNOV** Milli Məclisin Mədəniyyət komitəsinin sədri | 29 |
| **Əhliman Tapdıq oğlu ƏMİRASLANOV** Milli Məclisin Səhiyyə komitəsinin sədri | 16 |
| **Ülvi Zahid oğlu QULİYEV** Milli Məclisin Gənclər və idman komitəsinin sədri | 27 |
| **Siyavuş Dünyamalı oğlu NOVRUZOV** Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri | 20 |
| **Səməd İsmayıl oğlu SEYİDOV** Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri | 8 |
| **Aqiyə Həbib qızı NAXÇIVANLI** Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri | 23 |
| **Səfa Abbas oğlu MİRZƏYEV** Azərbaycan Respublikası Milli Məclisi Aparatının rəhbəri | 2 |
| **Firudin Süleyman oğlu HACIYEV** Azərbaycan Respublikası Milli Məclisinin işlər müdiri | 3 |
| **Hacı Mirhəşim Miryaqub oğlu SEYİD** Milli Məclis Aparatının Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri | 17 |
| **Məhəmməd İmran oğlu BAZIQOV** Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri | 24 |
| **Nizami Abdulla oğlu SƏFƏROV** Milli Məclis Aparatının İnzibati və hərbi qanunvericilik şöbəsinin müdiri | 14 |
| **Adilə Ziyat qızı ABASOVA** Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri | 21 |
| **İlqar İslam oğlu FƏRZƏLİYEV** Milli Məclis Aparatının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri | 7 |

**QEYD:** Vətəndaşlar Azərbaycan Respublikası Milli Məclisi Aparatının Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsində qəbul olunurlar.

| | |
|---|---|
| **Qəbula yazılma vaxtı:** | saat 9:00-dan 18:00-dək |
| **Qəbul vaxtı:** | saat 14:00-dan başlayır |
| **Qəbul günü qəbula yazılma:** | saat 12:00-da dayandırılır. |

Qəbula 1 gün qalmış elektron qeydiyyat dayandırılır.

Azərbaycan Respublikası Milli Məclisinə qəbula dəvət olunanlar şəxsiyyət vəsiqəsini təqdim etməlidirlər.

| | |
|---|---|
| **Telefonlar:** | (012) 510-99-38 |
| | (012) 510-89-14 |
| | (012) 492-74-05 |

*Aparatın Vətəndaşların qəbulu və müraciətləri ilə iş şöbəsi*

# İLHAM ƏLİYEV nümunə göstərir

## "Məmurun vəzifəsi vətəndaşa xidmət etməkdir"

Əvvəli 1-ci səh.

Son illər ərzində görülmüş işlər göz qabağındadır. Azərbaycan müasirləşir, yeniləşir, hər bir yerdə, hər bir bölgədə və hər bir sahədə çox böyük quruculuq-abadlıq işləri aparılır".

Dövlət başçısının dediklərini Nazirlər Kabinetinin ənənəvi müşavirələrindəki çıxışlarının davamı kimi də qəbul etmək olar. Yəni Prezident xalqla görüşlərində dövlətin qarşısında duran məqsədlərə aydınlıq gətirir, onların zəruriliyini vurğulayır, islahatların dərinləşməsinin əlavə imkanlar yaradacağını izah edir. "İslahatlar yenilik, müasirlik, nöqsanların aradan qaldırılması, problemlərin həlli deməkdir. Bizdə hər bir sahə üzrə çox aydın təsəvvür və iş proqramı var. Ona görə islahatların dərinləşməsi nəticəsində əldə edilmiş nailiyyətlər, əlbəttə ki, vətəndaşların rifah halını yaxşılaşdırır" deyən dövlət başçısı bununla ölkədə görülən bütün işlərin xalqa xidmət etdiyini bir daha bəyan edir.

Belə görüşlərdəki səmimiyyət, dövlət başçısı ilə yerli sakinlərin eyni məqsədə və eyni nəticələrə köklənən dialoqları həm də iqtidar-xalq birliyinin bariz təzahürüdür. Dövlət nə qədər xalqın qayğılarına, sosial məsələlərin həllinə diqqət yetirirsə, vətəndaşlar da bir o qədər dərindən öz dövlətinə bağlanar, onun tərəqqisi yolunda daha əzmlə çalışmağa səy göstərərlər.

Prezidentin xalqla təmaslarında aydın sezilən məqamlardan biri də odur ki, vətəndaşları narahat edən məsələlər belə görüşlərdən sonra operativ həll olunur və dövlət başçısı bununla hər bir məmura, yerli icra orqanlarının başçılarına nümunə göstərir: "Mən bunu dəfələrlə demişəm. Əfsuslar olsun ki, hər yerdə belə deyil, elə hallar var ki, vətəndaşları incidirlər, onların haqları tapdalanır, onların problemlərinə biganə yanaşılır. Bilirsiniz ki, mən vətəndaşlarla müntəzəm təmasda oluram. Mən vətəndaşlardan həm problemləri, həm də müsbət tərəfləri eşidirəm. Ona görə hər bir dövlət məmuru bilməlidir ki, onun başlıca vəzifəsi vətəndaşlara xidmət etməkdir və mənim də tələbim bundan ibarətdir. Ancaq buna nail olmaq üçün çox ciddi ictimai nəzarət olmalıdır. Ona görə insanları narahat edən məsələlər - harada ki nöqsanlar, çatışmazlıqlar var, onlar deyilməlidir. Onlar müraciətdə öz əksini tapmalıdır ki, biz bunları həll edək".

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələrinin bölmələri sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə və İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qızılhacılı, Cəfərli kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Baş Qərvənd, Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Göygöl, Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.




# “Formula-2” yarışlarında sıralanma turuna yekun vurulub

“Carlin” komandasının pilotu Nobuhari Matsuşita Bakıda keçirilən “Formula-2” yarışında sıralama turunun qalibi olub.

AZƏRTAC xəbər verir ki, “ART Grand Prix” komandasının sürücüsü Nik de Vries ikinci, “UNI-Virtuosi” komandasının pilotu Luka Qiotti isə üçüncü yeri tutublar.



# “Formula-2”: Luka Qiotto ilk sərbəst yürüşün qalibi olub

“Formula- 1” SOCAR Azərbaycan Qran-prisi çərçivəsində dünən keçirilmiş “Formula-2” yarışları üzrə birinci sərbəst yürüşə yekun vurulub.



45 dəqiqə davam edən sərbəst yürüş nəticəsində “UNI-Virtuosi” komandasının pilotu Luka Qiotto bütün rəqiblərini üstələyərək birinci olub.

“Carlin” komandasından Nobuharu Matsuşita sərbəst yürüşü ikinci, “MP Motorsport”un sürücüsü Cordan Kinq isə üçüncü yerdə başa vurublar.

# Almaniya KİV-i “Formula-1”dən yazır

“Formula-1” Azərbaycan Qran-prisi Almaniyanın kütləvi informasiya vasitələrinin diqqət mərkəzindədir.



“Speed-magazine” idman jurnalının internet səhifəsində dərc edilən məqalədə “Formula-1” Azərbaycan Qran-prisinin digərlərindən çox fərqləndiyi, Bakı Şəhər Halqasının “Formula-1” təqvimində ən uzun və ən sürətli marşruta malik olduğu bildirilir. Altı min metrdən çox uzunluğa malik halqada çətin döngələrin və maksimal sürəti toplamaq üçün düz yolun olduğu vurğulanır. Bu barədə AZƏRTAC xəbər verir.

“Motorsport” idman jurnalının internet səhifəsində dərc edilən məqalədə “Formula-1” Azərbaycan Qran-prisinin çox həyəcanverici olduğu qeyd edilir. Bakı Şəhər Halqasının döngələri ilə yadda qaldığı bildirilir. Məqalədə “Red Bull” komandasının pilotlarının Bakı Şəhər Halqasına dair fikirlərini əks etdirən videoçarx yerləşdirilib.

“Augsburger Allgemeine” qəzetinin saytında dərc edilən məqalədə də Bakı Şəhər Halqası haqqında məlumat verilir.

Eyni məzmunlu məqalələr Almaniyanın “Berliner Morgenpost”, “Speedweek”, “Badische Neueste Nachrichten”, “Motorsport Magazin”, “Motorsport Total”, “Rheinpfalz” və digər qəzet və jurnallarında da dərc olunub.

# “Alfa Romeo”nun italiyalı pilotu on start mövqeyindən məhrum olacaq

“Alfa Romeo” komandasının italiyalı pilotu Antonio Covinatsi “Formula-1” Azərbaycan Qran-prisində idarəetmə elektronikasının sayca üçüncü blokunu quraşdırdığı üçün cərimələnəcək.



AZƏRTAC xəbər verir ki, komandanın hər iki pilotu - Kimi Raykkonen və Antonio Covinatsi öz maşınlarında idarəetmə elektronikası bloklarını dəyişəcəklər.

Qaydalara görə, mövsümün gedişində güc qurğusunun yalnız iki komponentindən cərimədsiz istifadə etmək olar. İtaliyalı pilotun bolidində əvvəlcədən sayca ikinci elektron bloku olduğu üçün üçüncünün quraşdırılması cərimə - startda on mövqe itirməklə cəzalandırılıb.

Blokun dəyişdirilməsi ehtiyacı “Ferrari”nin tövsiyəsi ilə - Şarl Leklerin Bəhreyndə keçirilən yürüşdə qələbəni əldən verməsinə səbəb olmuş problemlərdən sonra idarəetmə elektronikasının dəyişdirilməsi nəticəsində yaranıb.

Kimi Raykkonen cərimə almayıb və o, Azərbaycan Qran-Prisinə sayca ikinci elektron blokundan başlayacaq.



# “Formula-1”in könüllüləri

Böyük maraqla izlənilən və avtomobil yarışları içərisində yüksək nüfuza malik olan “Formula-1” Azərbaycan Qran-prisi həyəcanı başlayıb. Sürət həvəskarlarının səbirsizliklə gözlədikləri Bakı mərhələsinə hazırlıq işləri ən yüksək səviyyədə görülüb.

Planetin bir nömrəli avtomobil yarışının təşkilində və keçirilməsində bir sıra məsələlər xüsusilə önəm kəsb edir. Bunlardan biri də marşallardır. Onlar “F1” aləmində “Yarış rəsmiləri” də adlandırılırlar.

Ümumiyyətlə, dünyada marşallıq sevimli məşğuliyyət kimi qəbul olunur. İnsanlar müxtəlif yarışlarda marşallıq edərək həm maraqlı vaxt keçirir, həm də yarışı yaxından izləmək şansı qazanırlar.

Ölkəmizdə bu sahə yeni olmasına baxmayaraq, Bakı Şəhər Halqası Əməliyyat Şirkəti tərəfindən təsis edilən “Baku Marshals Club” marşallıq fəaliyyətinin bütün istiqamətlərinə dair tədbirlər təşkil edir, müsahibələr və təlimlər keçirir, eyni zamanda, beynəlxalq marşal klubları ilə sıx əməkdaşlıq qurur.

Onlar yerinə yetirdikləri müxtəlif növ vəzifələrə əsasən aşağıdakı növlərə bölünürlər:

### Sektor marşalları:

Trek xəyali olaraq “sektorlara” bölünür və hər bir sektora nəzarət bir sektor marşalına və onun bir və yaxud iki müavininə tapşırılır. Onlar trek üzrə təyin olunduqları sahədə əsas səlahiyyətli nümayəndə hesab olunur və burada baş verən bütün işlərə görə məsuliyyət daşıyırlar.

### Trek marşalları:

Halqa boyunca nəzarət postlarında yer alanlar əsas marşallardır. Onların bir çox vəzifələri var. Trek marşalları rəsmilər arasında ən çox məsuliyyət daşıyan şəxslərdir. Onların vəzifələrinə trekə daxil olub, onu qalıqlardan təmizləmək, təhlükədə olan avtomobilləri itələmək və qəzadan sonra ərazini təmizləmək daxildir. Bu işi görə bilmək üçün zireklik, komandada işləmək qabiliyyəti, dözümlülük və təcrübə tələb olunur.

### Bayraq marşalları:

Trek boyunca marşal məntəqələrində yarış iştirakçılarını bayraq vasitəsilə məlumatlandıran məsul şəxslərdir. Onların başlıca vəzifələri sürücülərlə bayraqlar vasitəsilə əlaqə qurub pilotları qarşıda olan təhlükə barəsində məlumatlandırmaq, qəza anında mövqeyində qalaraq yolda baş vermiş təhlükə barədə xəbərdar etməkdir.

### Rəqəmsal bayraq marşalları:

Halqa boyu müvafiq mövqelərdə yerləşdirilib, digər bayraq marşallarının üzərinə düşən işi görürlər. Yeganə fərqləri bayraq əvəzinə displeydən istifadə etmələridir.



### Start və finiş marşalları:

Yarışı başlamaq və bitirmək üçün damalı bayraqlardan, elektron vaxt tablolarından və digər vasitələrdən istifadə edirlər. Onlar start və finiş xəttində müxtəlif bayraqları (qara bayraq, mexaniki bayraq və s.) göstərməyə görə cavabdehlik daşıyırlar.

### Yanğınsöndürən və xilasetmə marşalları:

Yanğınsöndürmə üzrə geniş təcrübə əldə ediblər. Onlar tədbir zamanı bütün yanğın və xilasetmə işlərinə görə cavabdehlik daşıyırlar.

### Tibbi marşallar:

Bu xidmətə həkim heyəti (həkimlər, orta təhsilli tibb işçiləri, tibb bacıları və s.), avadanlıq və nəqliyyat vasitələri, trekdə təxirəsalınmaz kömək, yaralıların daşınması, tibbi mərkəz, kommunikasiya sistemi, əvvəldən təyin olunmuş xüsusi xəstəxanalar daxildir.

### Texniki təftiş marşalları:

Bu təftiş marşalları gündəlik olaraq hər bir avtomobili, o cümlədən qəzaya uğramış avtomobilləri təftiş edərək təhlükəsizlik və uyğunluq tələblərinə cavab verdiyini müəyyən edir.

### Pit və sıra düzülüşü marşalları:

Bu marşallar hər bir tədbirdən əvvəl start düzülüşünü qururlar. Onların vəzifələrindən biri tədbir zamanı pit xəttindəki nəqliyyat vasitələrini və insanları yönləndirməkdir.

### Bərpa üzrə marşallar:

Bu qrupa evakuator avtomobillərinin heyəti və onların köməkçiləri daxildir. Onların vəzifəsi tədbir zamanı və tədbirdən sonra sıradan çıxmış və hərəkətsiz qalmış avtomobilləri trekdən uzaqlaşdırmaqdır.

### Kommunikasiya üzrə marşallar:

Rabitəçi və ya müşahidəçilər kimi tanınırlar. Onlar hər bir marşal postuna təyin edilir, baş verənləri müşahidə edir, yarışa nəzarət otağına xüsusi audio rabitə kanalları vasitəsilə məlumat ötürürlər.

### Hüdudlar üzrə marşallar:

Əsas vəzifəsi halqa boyu çətin vəziyyətdə qalmış sürücülərə kömək etmək və onları yubanmadan pitlərə aparmaqdır.

### Logistika və marşalların təchizatı:

Onların vəzifəsi digər marşalları tədbirdən əvvəl və tədbir zamanı yemək, su, avadanlıq, dəftərxana məhsulları, radio qurğuları və geyimlə təmin etməkdir.

*Elçin CƏFƏROV, “Azərbaycan”*

# Gərgin idman mübarizəsi yaşanıb

*Əvvəli 1-ci səh.*

İkinci sərbəst yürüşdə isə “Ferrari” komandasının pilotları fərqləniblər. Belə ki, Çarls Lekler birinci, Sebastian Fettel isə ikinci olublar. İlk üçlüyü beşqat dünya çempionu Luis Hamilton (“Mercedes”) tamamlayıb.

İkinci sərbəst yürüşdə isə “Racing Point”dən Lens Stroll, “Toro Rosso”dan isə Daniil Kvyat qəza səbəbindən mübarizəni dayandırıblar.

“Formula-1” SOCAR Azərbaycan Qran-prisi çərçivəsində təşkil olunan “Formula-2” yarışlarında sərbəst yürüş və sıralanma turu keçirilib.

Qırx beş dəqiqə davam edən sərbəst yürüş nəticəsində “UNI Virtuosi” komandasının pilotu Luka Qiotto bütün rəqiblərini üstələyərək birinci olub. “Carlin” komandasından Nobuhari Matsuşita sərbəst yürüşü ikinci, “MP Motorsport”un sürücüsü Cordan Kinq isə üçüncü yerdə başa vurublar.

“Carlin” komandasının pilotu N.Matsuşita “Formula-2” yarışında sıralama turunun qalibi olub. “ART Grand Prix” komandasının sürücüsü Nik de Vries ikinci, “UNI-Virtuosi”nin pilotu L.Qiotti isə üçüncü yeri tutublar.

Aprelin 27-də “Formula-1” SOCAR Azərbaycan Qran-prisində üçüncü sərbəst yürüş və sıralama turu, “Formula-2”də isə birinci yarış keçiriləcək. Aprelin 28-də isə “Formula-1” SOCAR Azərbaycan Qran-prisi, həmçinin “Formula-2”nin ikinci yarışı təşkil olunacaq.

Xatırladaq ki, “Formula-1” yarışı Azərbaycanda dördüncü ildir təşkil olunur. 2016-cı ildə təşkil olunan birinci yarışda - “Formula-1” Avropa Qran-prisində “Mercedes” komandasının almaniyalı pilotu Niko Rosberq qalib gəlib. 2017-ci ildə təşkil olunan “Formula-1” Azərbaycan Qran-prisi “Red Bull Racing” komandasının avstraliyalı pilotu Daniel Rikkiardonun qələbəsi ilə başa çatıb. Ötənilki Qran-pridə isə “Mercedes” komandasının britaniyalı sürücüsü Luis Hamilton qələbə qazanıb.

Dünyanın məşhur pilotlarının mübarizə apardıqları Bakı şəhər halqası elə qurulub ki, yarış zamanı pilotlar və milyonlarla televiziya tamaşaçıları UNESCO-nun ümumdünya mədəni irs siyahısına daxil olan İçərişəhəri, paytaxtın müasir memarlıq abidələrini və Xəzərin sahilboyu hissəsini özündə birləşdirən ecazkar mənzərəni görə bilirlər. Layihənin müəllifi bütün müasir “Formula-1” treklərinin memarı olan Herman Tilkedir. Trekin ən geniş hissəsinin eni 13, ən dar hissəsinin eni isə İçərişəhər ətrafında, o cümlədən 7-ci və 8-ci döngələrdə 7,6 metr təşkil edir. Yarışın start və finiş xətti Azadlıq meydanındadır. Burada həmçinin “Paddok klub”, komandaların boksları və pit-leyn qurulub.

# “Brit” mükafatlı müğənni Bakıda konsert verəcək

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti (BŞH) ictimaiyyətin nəzərinə çatdırır ki, “Formula- 1” SOCAR Azərbaycan Qran prisi-2019 yarış həftəsonu - 27 aprel tarixində sağlamlıq məsələləri ilə bağlı konsert proqramını ləğv etməli olan Sem Smiti bu gün “Price Tag”, “Domino” və “Bang Bang” kimi hit mahnıları ilə tanınan və albomları milyonlarla satılan Cessi Cey əvəz edəcək.



Bakı Kristal Zalında baş tutacaq bu konsert tədbiri BŞH-nin “Formula-1” yarış həftəsonu əyləncə proqramına daha bir möhtəşəm ad əlavə edəcək.

Britaniyalı müğənninin “Who You Are” adlı albomu milyonlarla satılıb və ona “BRITS Critics' Choice” mükafatını qazandırıb. Bundan sonra sənət fəaliyyətinə bir qədər fasilə verən Cessi Cey yalnız altı il sonra öz etiraflarını bölüşdüyü “R.O.S.E” albomunu çıxarıb.

Musiqiçinin Don Diablo ilə ifa etdiyi “Brave” adlı ən son sinqlı isə buraxılıb.

Cessi Cey, eləcə də Bakı Şəhər Halqası Əməliyyat Şirkətinin bütün kollektivi Sem Smitə şəfalar diləyir və onu tezliklə Bakıda görməyi arzulayır.

Bütün bilet sahibləri Bakı Kristal Zalında dünya ulduzlarının iştirakı ilə keçiriləcək axşam konsertlərində pulsuz iştirak edə biləcəklər. Tamaşaçıların Bakı Şəhər Halqasından Kristal Zala gediş-gəlişi avtobuslar vasitəsilə həyata keçiriləcək.

# *Cemi Sleksmet:* “Formula-1” Azərbaycan Qran-prisi digər yarışlardan möhtəşəmliyi ilə fərqlənir”

“Formula-1” Azərbaycan Qran-prisi möhtəşəmliyi ilə digər yarışlardan fərqlənir”.




Bu sözləri “Formula-1” SOCAR Azərbaycan Qran-prisini izləmək üçün Bakıya gələn ingiltərəli turist Cemi Sleksmet AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

Ölkəmizə ikinci dəfə gəldiyini vurğulayan C.Sleksmet azərbaycanlıların qonaqpərvər və gülərüz olduqlarını diqqətə çatdıraraq bildirib ki, şəhər traslarında yarış həmişə maraqlı olur: “Ensiz və uzun yollarda bolidlərin mübarizəsi məni valeh edir. Ümid edirəm ki, gələn il təşkil olunacaq yarışa da gələcəyəm. Əyləncə zonasında çox gözəl şərait yaradılıb”.

Azərbaycan mətbəxinin zənginliyindən məftunluqla söz açan ingiltərəli turist deyib: “Özünəməxsus və dadlı milli xörəkləriniz var. Bakıda həm Şərq, həm də Qərb mədəniyyətinin elementlərini görmək olar. Möhtəşəm binalar və Dənizkənarı park insanı valeh edir”.

# Corc Rassell mübarizəni dayandırdı




Dünən “Formula -1” SOCAR Azərbaycan Qran-prisində ilk qəza baş verib.

AZƏRTAC xəbər verir ki, birinci sərbəst yürüşdə “Williams” komandasının pilotu Corc Rassellin bolidi drenaj lükünə ilişərək sıradan çıxıb.

Marşallar dərhal bolidi xüsusi avtomobillə trasdan kənarlaşdırıblar. Pilot isə pit-leynə qayıdıb.

# BŞH “Formula-1” Azərbaycan Qran-prisinin birinci sərbəst yürüşündə baş verən qəza ilə bağlı açıqlama yayıb

Bakı Şəhər Halqası Əməliyyat Şirkəti aprelin 26-da “Formula-1” SOCAR Azərbaycan Qran-prisinin birinci sərbəst yürüşü zamanı baş verən qəza ilə bağlı açıqlama yayıb.

AZƏRTAC-a daxil olan açıqlamada birinci sərbəst yürüş sessiyasının lük qapağının yerindən tərpənməsi nəticəsində ləğv edildiyi bildirilib: “Əvvəlcədən görülmüş bütün təhlükəsizlik və nizamlayıcı tədbirlərə baxmayaraq, bu hadisənin yaranmasına əsas səbəb lük altlığında üstdən görünməyən nasazlığın olmasıdır.

Beynəlxalq Avtomobil Federasiyası (FIA) ilə birlikdə həmin lükün təhlükəsiz şəkildə əvəz olunması və trekdə olan bütün digər lüklərin növbəti yarış sessiyasına qədər bir daha yoxlanılması istiqamətində iş aparılıb. Pilotların təhlükəsizliyi bizim üçün hər zaman ən ümdə və ən vacib məsələdir. Trekdə olan 300-dən çox lükün təkrar yoxlanılması prosesi başa çatdıqdan dərhal sonra növbəti yarış sessiyasına start verilib”.




# “Formula -1”

## Bakı sevilməyə, müasirliyi yaradanlar isə ehtirama layiqdirlər







Bir neçə gündür ki, Bakıda əsl idman bayramı ovqatı yaşanır. Ölkəmiz nəinki Cənubi Qafqazın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib. Dünən “Formula-1” Azərbaycan Qran-prisi yarışlarında iştirak edəcək komandalara “Azadlıq” meydanından start verildi. Yarış iştirakçılarının keçəcəyi trasın uzunluğu 6 kilometrdən bir qədər çox, trekin geniş sahəsi 13 metr, dar hissəsi İçərişəhər yaxınlığında 7,6 metr olan yeddinci və səkkizinci döngələrdir.

Azərbaycanın müxtəlif şəhər və qəsəbələrindən, dünyanın müxtəlif ölkələrindən olan yüzlərlə azarkeş yarışın ilk gününü böyük şövqlə müşahidə etdilər. Onların yarış və ölkəmiz haqqında fikirlərinin oxucularımız üçün də maraqlı olacağını nəzərə alıb bir neçə izləyici ilə yaxından tanış olduq. İlk müsahibimiz moskvalı Kuçerenko İqor Vasilyeviç oldu. O, Bakıya 80 yaşlı anası Nina Kuçerenko, həyat yoldaşı Olqa, oğlanları Maksim və Denislə birgə gəlib. “Azərbaycan xalqında belə bir yaxşı adət var: böyük olan yerdə kiçik danışmaz, yaxud az danışar. Ona görə də qoy anam danışsın. O, bizm ailənin böyüyüdür. Üç gündür Bakıdayıq, anam o qədər məmnundur ki, şəhər o qədər xoşuna gəlib ki, yaxşı olar, özü danışsın”, - deyə İqor sözü anası Nina Kuçerenkoya verdi.

- Mən bu yaşıma kimi çox ölkələrdə, şəhərlərdə olmuşam. Etiraf edim ki, oğluma da demişəm, Bakı mənə onlardan xoş gəldi. Bəlkə də birinci dəfədir bu şəhərdəyəm, ona görə belədir, amma yox, gözəl, bəzəkli, təmiz bulvar, əzəmətli binalar, müasir parklar, yaraşıqlı fəvvarələr, işıqlı küçələr, dəbli butiklər, restoranlarla yanaşı, qədimliyi “üzündən bilinən” tikililər, kiçik məhəllələr, balaca dükanlar çox təbii görünür. Mənim əsl sevdiyim kosmetikadan, sünilikdən uzaq, qədimliyi ilə müasirliyi özündə ehtiva edən şəhərdir. Ömür vəfa etsə, oğlumdan xahiş edəcəyəm, haçansa bir də məni Bakıya gətirsin, istəyirəm Naxçıvanda, Gəncədə, Şəkidə olam.

Kuçerenkolara xoş istirahət arzulayıb növbəti turist dəstəsi ilə tanış oluruq. Onlar Rusiyanın Nijni-Novqorod şəhərindəndirlər. İlk olaraq orta yaşlı Tatyana Petrovna Pankina dilləndi:







- Mən iki il bundan əvvəl də Bakıda olmuşam. Eşidəndə ki, Bakıda “Formula-1” yarışları keçiriləcək, çox məmnun oldum, mənim idmana böyük həvəsim var. Odur ki, Bakıya gəlməyi və bu möhtəşəm yarışa tamaşa etməyi qərara aldım. Bir neçə gündür Bakıdayam, İçərişəhərə yaxın hoteldə qalıram. Bilirsiniz nə üçün? Axşamlar Dənizkənarı bulvarın mənzərəsindən doymaq olmur, rəfiqələrimlə gecə də, gündüz də bulvarda gəzirik, dincəlirik. İnsanların mehribanlığı, xoş rəftarı, şəhərdə olan sabitlik adama nə qədər xoş təsir bağışlayır. Yarışlara gəlincə, ən güclülərə və peşəkarlara qələbə arzulayırıq. Bu, bizim Nijni-Novqoroddan gələn dəstənin hər birinin ürək sözüdür.

Şən, mehriban, bütün qayğılardan uzaq, gülərüz turistlərdən ayrılıb yarış avtomobillərinin sürətlə şütüdüyü marşrutun yaxınlığında dayanmış türkiyəli qonaqlarla görüşürük. Ağsaçlı, nurani bir ağsaqqal məxsusi olaraq mehribanlıqla bizə yaxınlaşıb özünü təqdim etdi.

- Albert Məhərrəmov, yanımdakı həyat yoldaşım Kifayət xanımdır, həkimdir. Mənim də, həyat yoldaşımın da uşaqlıq və gəncliyi Bakının köhnə məhəllələrindən olan Molokan bağının yaxınlığında keçib. 30 ildən çoxdur ailəmlə birlikdə İstanbulda yaşayıram. Deyir, insan yaşa dolanda doğma yerlər onu özünə çəkir. Mən dörd gün bundan əvvəl Bakıya gələndə inanın ki, şəhəri tanıya bilmədim. Şəhər nə qədər gözəlləşib, inkişaf edib, yeni tikililər, yollar, körpülər, fontanlar... hansını deyim, hər addımda yenilik və müasirlik. Köhnə Basin küçəsində, əldən-ayaqdan getmiş bir-ikimərtəbəli tikililərin yerində, Beşmərtəbənin qabağından dəmir yolu vağzalınadək salınan istirahət parkını görəndə heyrətə gəldim, necə gözəl, necə qəşəng. Dənizkənarı bulvar genişlənib, abadlaşıb. Açığı, Bakının bu gözəl növrağını görəndə ürəyimdən bu fikirlər keçdi: kaş o vaxtlar Bakıdan köçməyəydim. Axı mənim də, həyat yoldaşımın da ata-babaları bu torpaqda uyuyur. Bu barədə İstanbuldan gələn turist yoldaşlarım arasında söhbət düşəndə hətta məni qınayanlar da oldu.

Bakı sevilməyə, bu gözəlliyi və müasirliyi yaradanlar isə ehtirama layiqdirlər.

***Rəhman SALMANLI,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***“Azərbaycan”***

## “Formula-1” SOCAR Azərbaycan Qran-prisi öncəsi pit yolu gəzintisi təşkil olunub

Dünən “Formula-1” SOCAR Azərbaycan Qran-prisi öncəsi dördgünlük bilet sahibləri üçün pit yolu gəzintisi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, avtoidman yarışlarının həvəskarları, paytaxt sakinləri və şəhərimizin qonaqları pit yoluna daxil olaraq komandaların yarışa hazırlığını izləyiblər.

Pərəstiş etdikləri komandaların yarışa hazırlığı ilə yaxından tanış olan azarkeşlər qarajlarda yaradılmış şəraitlə də maraqlanıblar.

Böyük coşqu ilə keçən pit yolu gəzintisindən azarkeşlər xoş təəssüratlarla ayrılıblar.



## Mika Salo Azərbaycan Qran-prisinin üçüncü stüardıdır

“Formula-1” çempionatının sabiq pilotu Mika Salo Azərbaycan Qran-prisinin üçüncü stüardı qismində Beynəlxalq Avtomobil Federasiyasına (FIA) dəvət edilib.



AZƏRTAC xəbər verir ki, mübahisəli vəziyyətlərin araşdırılmasına Mika Salo ilə bərabər “DMSB” Almaniya Assosiasiyasının nümayəndəsi doktor Gerd Ennzer və FIA-nın Apelyasiya Məhkəməsinin üzvü Niş Şett də cəlb ediləcək.

Bu il Avstraliya Qran-prisində Denni Sallivan, Bəhreyndə Emanuele Pirro və Çində Derek Uorik dəvət edilmiş stüardlar olublar.

## Toto Volff: “Qarşımızda mürəkkəb məsələlər kompleksini həll etmək vəzifəsi durur”

“Mercedes” komandası “Formula-1” Azərbaycan Qran-prisinə hazırlaşır. Maraqlı Bakı trasında keçəcək yürüşdə pilotları şinlərin, xüsusilə ön şinlərin qızması kimi çətinliklər, optimal sazlanma yollarının axtarışı gözləyir. Bu trasda səhvə yol vermək baha başa gəlir. Çempion komandanı mövsümün dördüncü mərhələsinə hansı ümidlərin bağlaması barədə təəssüratları ilə komandanın rəhbəri Toto Volff bölüşür: “İlk üç yürüşdə üç qoşa qələbə - mövsümə fantastik dərəcədə uğurlu başlanğıcdır. Biz qarşımızda olan fürsətlərdən maksimal səviyyədə istifadə etməyi bacardıq. Baxmayaraq ki, bizim bolid heç də hər zaman ən sürətli deyildi.

Komanda üzərinə düşən vəzifənin öhdəsindən əla gəldi, onun hər departamenti əminliklə işlədi. Buna misal çoxdur, Şanxaydakı ikiqat pip-stop bunlardan daha çox nəzərəçarpanıdır. Lakin biz başa düşürük ki, inadla çalışmağa davam etməliyik.

Növbəti mərhələ Azərbaycanda keçirilir. Biz orada ötən illərdə dəfələrlə maraqlı yürüşlərin şahidi olmuşuq. Mən əminəm ki, bu dəfə də belə olacaq. Trasın konfiqurasiyası elədir ki, qarşımızda mürəkkəblik baxımından unikal məsələlərin kompleks həlli durur. Bu səbəbdən baxmaq maraqlıdır ki, bolidin həm uzun düz yolun, həm də astasürətli döngələrin öhdəsindən yaxşı gəlməsi üçün komandalar daha hansı düzgün uzlaşma tapa biləcəklər.



Buna baxmayaraq, Bakıda təkcə yaxşı sürət nümayiş etdirmək mühüm deyil. Yaxşı nəticəyə nail olmaqdan ötrü xoşagəlməz hadisələrdən çəkinmək daha vacibdir.

Ötən il Valtteri yaxşı yürüş nümayiş etdirdi. Lakin şinlərin deşilməsi səbəbindən finişə az qalmış o, layiqli qələbəsindən məhrum oldu. Hazırda Bottas mövsümə yaxşı başlayıb və mən əminəm ki, o, ötənilki uğursuzluğun əvəzini çıxacaq.

Ötənilki mövsümdən fərqli olaraq, Lüis Hemilton Bakıya çempionatın şəxsi hesabında lider qismində yollanır və o, şübhəsiz ki, keçənilki uğurlarını təkrarlamağa cəhd edəcək”.

## Yürüş mühəndisi Bakı trası haqqında

“Renault” komandasının pilotu Daniel Rikkardonun yürüş mühəndisi Karel Lus Bakı trasının və şəhər Qran-prilərinin xüsusiyyətlərindən danışıb.

K.Lus deyib: “Bakı trası astasürətli döngələrin uzun düz yolla ahəngində maraqlı uyğunlaşmadır. Burada qaz pedalını basma müddəti 20 saniyə uzandığı bir vaxtda yürüşçülər mövqe uğrunda mübarizə aparırlar.

Şəhər trasında heç kimin səhvə yol vermək haqqı yoxdur. Yürüşdə çoxsaylı qəzalar baş verir, tez-tez təhlükəsizlik avtomobili yola çıxır. Bundan



başqa, Bakıda şinləri qızdırmaq çətindir. Bu amillər sayəsində yürüş maraqlı alınır.

Şəhər traslarında pilot tərəfindən əks istiqamətlə ünsiyyət böyük rol oynayır. Biz çalışırıq ki, pilot özünü rahat hiss edərək bolidinə etimad göstərsin. Əgər pilot bolidinə əmindirsə, o zaman o, hücuma keçməyi bacaracaq. Şəhər traslarında pilotun istəklərinə xüsusi diqqətlə yanaşmaq lazımdır və onun maşını sürətlə idarə etməsi üçün arzuladığı hər şeyi təqdim etmək vacibdir. Bu, stasionar avtodromlarla müqayisədə şəhər traslarında daha çox mühümdür.

Bakı trası mühəndislər üçün də mürəkkəbdir. Çünki sıxılan güclə sürət arasında uyğunlaşma tapmalısan. Sazlanma axtarışını külək çətinləşdirir. Küləyin istiqaməti hər döngədə dəyişir. Bu səbəbdən də pilot və mühəndislərin işi asan olmur”.

## “Sky Sport” “Formula-1” Azərbaycan Qran-prisi barədə




İtaliyanın “Sky Sport” televiziya kanalının saytında “Formula-1” Bakı Qran-prisi: Bakı trası haqqında bilməli olduğumuz hər şey” sərlövhəli yazı yerləşdirilib.

Yazıda yarışda iştirak edəcək komandalar, Bakı Şəhər Halqasının texniki göstəriciləri və yarışın keçiriləcəyi tarix haqqında bəhs olunur.

Qeyd edilir ki, sayca dördüncü dəfə keçiriləcək Azərbaycan Qran-prisi aprelin 28-i “Sky Sport F1” telekanalı vasitəsilə yerli vaxtla saat 14:10-dan etibarən canlı yayımlanacaq.

## Niko Hülkenberq: “Azərbaycan Qran-prisi ildən-ilə daha da maraqlı olur”

“Formula-1” çempionatının “Renault” komandasının pilotu Niko Hülkenberq Azərbaycan Qran-prisi barədə təəssüratlarını bölüşüb.

O deyib: “Bakı maraqlı yerdir, duyğu baxımından adi Qran-prilərdən fərqlənir. Azərbaycanda tras hər hansı küçə yürüşlərindən seçilir. Çünki hər şey bir-birinə olduqca yaxın yerləşir, hətta hotel və bokslar belə. Qədim evlər, tikililər və döşənmiş küçələr - bütün bunları seyr etmək çox xoşdur.

Yürüşlər ildən-ilə maraqlı keçir. Son iki mövsümdə bir az bəxtim gətirməyib, lakin hər fürsətdən istifadə etmək üçün daim lazım olan vaxt ehtiyac olan yerdə olmalısan”.

### Milli qəhrəmanlarımız

# Bir günün planı





2016-cı ilin Aprel döyüşləri ermənilərə bir daha sübut etdi ki, Azərbaycan Ordusu bütün qüvvələrini səfərbər edəndə məqsədinə çata bilir. Həm də sübut olundu ki, ordumuzun potensial gücü düşməni məğlub etmək iqtidarındadır.

Bu döyüşlərdə 2 min hektardan çox ərazimiz işğaldan azad edildi. Onu da deyək ki, həmin döyüşlərdə Azərbaycanın üç Milli Qəhrəmanı axıra qədər döyüşdü. Onlardan biri də Murad Telman oğlu Mirzəyev idi. O, Sabirabadda doğulub. Elə orada orta məktəbi bitirib. Sonra C.Naxçıvanski adına Hərbi Liseyə qəbul olunub. Təhsilini uğurla başa vurub, məqsədi bacarıqlı hərbçi olmaq idi. Ona görə də təhsilini davam etdirməyi qərara alıb. 1991-1994-cü illərdə Türkiyədə Ali Hərbi Məktəbi bitirib. Onu tanıyanlar deyirlər ki, ardıcıllıqla öz üzərində işləyirdi, beynəlxalq hərbi qanunları öyrənirdi. Heç də təsadüfi deyil ki, Amerikada, Rumıniyada, İordaniyada keçirilən hərbi kurslarda, təlimlərdə iştirak etmişdi. Daha sonra Amerikada panker kurslarını bitirib yenidən vətənə dönmüşdü. Bacarıqlı zabit kimi tanınırdı. Aprel döyüşləri zamanı müxtəlif istiqamətlərdə savaşa qoşulmuşdu. Çox vaxt qeyri-bərabər döyüşlərdə öz gücünü, qabiliyyətini göstərmişdi. Onun rəhbərlik etdiyi hərbi alay ən çətin döyüşlərdə düşməni susdura bilmişdi. Tərtərin, Goranboyun, Cəbrayılın kəndlərini düşməndən azad edərkən qəhrəmanlıq göstərmişdi. Tərtərin Qazaxlar kəndi uğrunda gedən döyüşlərdə xüsusi planlar hazırlamış, düşmənə ağır zərbələr endirmişdi. Goranboyun Gülüstan kəndinin azad olunmasında da xidməti olmuşdu. Ən böyük qəhrəmanlığı isə Cəbrayılın Lələtəpə yüksəkliyi uğrunda gedən döyüşlərdə göstərmişdi. Onda Murad Mirzəyevin rəhbərlik etdiyi hərbi birləşmə çevik mövqelər seçmiş, düşmənə göz açmağa imkan verməmişdi.

Aprelin son döyüşləri isə Tərtər rayonunun Talış kəndi uğrunda gərgin mübarizədə gedirdi. Bu döyüşə rəhbərlik edən də Murad Mirzəyevin komandası idi. Döyüşçülər düşmənə göz açmağa imkan vermirdilər. Zərbə mövqelərini tez-tez dəyişirdilər. Belə çaşdırıcı manevrlər gərgin vəziyyət yaratmışdı. Düşmən itkilərinin çoxluğunu görüb geri çəkilməyə məcbur olurdu. Onda Murad Mirzəyevin hazırladığı döyüş əməliyyatı uğurla başa çatdı. Onun əməliyyat planları o qədər mükəmməl idi ki, döyüşlər bir neçə gün davam etsə də, düşmən sonadək dözüm göstərə bilmədi. Muradın döyüş dostları deyir ki, düşmənə aman verməmək üçün biz tez-tez mövqelərimizi dəyişirdik. Bilirdik ki, erməni quldurlarının sayı bizdən xeyli çoxdur. Amma Murad bu çoxluqla barışmırdı. Deyirdi ki, az qüvvə ilə də çox iş görmək olar. Elə belə də oldu. Tərtərin Talış kəndinin azad olunmaq ərəfəsində Murad ağır yaralandı. Döyüş dostları nə qədər cəhd etsələr də, ona sona qədər kömək edə bilmədilər. Xeyli qan itirdi. Amma geri çəkilmək haqqında qətiyyən düşünmürdü. Axıradək döyüş dostlarından bir tələbi vardı ki, düşmənə yeni qüvvə ilə hücuma keçməyə macal verməyin. Bilirdi ki, bu döyüş bir qədər də davam etsə, ermənilər geri çəkilməyə məcbur olacaqlar. Elə onun düşündüyü kimi də oldu. Tərtərin Talış kəndi azad olundu. Amma Murad Mirzəyev bu döyüşdə canından keçdi.

Polkovnik-leytenant Murad Mirzəyevin cəmi 40 yaşı vardı. İki övlad atası idi. Xatirələrində yazırdı ki, mən həm vətən qarşısında, həm də məni böyüdən, ərsəyə gətirən ailəm önündə borcumu yerinə yetirirəm. Doğrudur, mənim o qədər arzum yarımçıq qaldı ki... Hərbi işə ürəkdən bağlanmışdım, dünya praktikasını öyrənmişdim. Hələ planlarım çoxdu.

Polkovnik-leytenant Murad Mirzəyev deyərdi ki, biz düşmənə qalib gəlmək üçün hər cür gücə, texniki imkanlara qadirik. Vaxt gələcək ki, düşmənlər özləri də bunu hiss edəcək, zəbt etdikləri torpaqlarımızı qeyd-şərtsiz boşaldacaqlar...

Ölümündən sonra onun adı, əməlləri dəyərincə qiymətləndirildi. Azərbaycanın Milli Qəhrəmanı kimi şərəfli ada layiq görüldü. Deyirlər ki, hələ ölümündən əvvəl düşmən onu ələ keçirmək üçün xeyli pul ayırmışdı. Elə döyüşdə də Muradın adı tez-tez çəkilirdi. Bu ad düşməni lərzəyə salırdı.

Bu gün Muradın ocağında iki övlad böyüyür. Atalarının keçdiyi şərəfli yolla fəxr edirlər. Bir də fəxr edirlər ki, onları böyüdən ata vətən qarşısında borcunu ləyaqətlə yerinə yetirdi. Hələ Muradın adı tez-tez çəkiləcək, döyüş dostları onun xatirələrindən o qədər danışacaqlar ki... O, qısa ömrünü belə mənalı və dəyərli başa vurdu...

***Bəşir ŞƏRİFLİ,***
***"Azərbaycan"***

# Bakı Ali Neft Məktəbinin tələbələri işğaldan azad olunmuş Cocuq Mərcanlı kəndinə səfər ediblər






Bakı Ali Neft Məktəbinin Tələbə Gənclər Təşkilatı və İntellektual Oyunlar Klubunun təşkilatçılığı ilə BANM tələbələri Cocuq Mərcanlı kənd orta məktəbinə səfər ediblər.

Məktəblilərlə görüş zamanı Bakı Ali Neft Məktəbi Tələbə Gənclər Təşkilatının sədri Kənan Sadıqov BANM və onun fəaliyyəti haqqında şagirdləri məlumatlandırdı. Daha sonra məktəb direktoru kollektivin uğurlarını tələbələrlə bölüşdü.

Görüş zamanı şagirdlərin ifasında vətənpərvərlik mövzusuna həsr olunmuş şeirlər dinlənildi. Məktəblilər üçün 30 sualdan ibarət 2 hissəli intellektual oyun keçirildi. Suallar şagirdlərin dünyagörüşlərini, bilik və bacarıqlarını əhatə edən mövzularda tərtib olunmuşdu. İştirak edən 12 komandaya işğalda olan rayonların adları verilmişdi. Oyun sonrası tələbə və məktəblilərin tarda ifası dinlənildi və şanlı Aprel zəfərinin şərəfinə tort kəsildi. Bayram abhavasında uşaqların həvəslə iştirak etdiyi 2-ci əyləncəli, interaktiv oyun ("Səssiz Sinema") da başa çatdı. Qalib komandalar kubok, medal və xüsusi hədiyyələrlə təltif olundu. Bununla yanaşı, bütün şagirdlərə məktəb ləvazimatları hədiyyə edildi. Tələbələrin gətirdiyi kitablar məktəbin kitabxanasının kitab fonduna bağışlandı.

***"Azərbaycan"***

# Bədii gimnastika üzrə dünya kuboku yarışlarının açılış mərasimi keçirilib






Aprelin 26-da Milli Gimnastika Arenasında bədii gimnastika üzrə dünya kuboku yarışlarının açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov açılış mərasimində çıxış edərək beynəlxalq arenada mötəbər idman yarışlarının yüksəksəviyyəli təşkilatçısı kimi tanınan Azərbaycanın daha bir mühüm turnirə evsahibliyi etdiyini bildirib. Müstəqilliyin bərpasından ötən müddətdə Azərbaycanın dünyada özünü dinamik inkişaf edən, müasir ölkə kimi tanıtdığını bildirən nazir müavini vurğulayıb ki, respublikamızda digər sahələrlə yanaşı, idmanın inkişafına da diqqət və qayğı göstərilir. Bunun sayəsində Azərbaycan idmanı sürətlə inkişaf edir, atletlərimiz ən nüfuzlu yarışlarda uğurla mübarizə aparır, ölkəmiz mötəbər turnirlərə peşəkarlıqla evsahibliyi edir. Dövlət başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən düşünülmüş, məqsədyönlü dövlət siyasəti sayəsində Azərbaycan dünyada qabaqcıl idman dövlətlərindən birinə çevrilib.

İ.İsmayılov deyib ki, son illər müxtəlif səviyyəli beynəlxalq yarışların vətənimizdə keçirilməsi və idmançılarımızın ən mötəbər yarışlarda əldə etdikləri böyük uğurlar bunun əyani sübutudur: "Bunun da nəticəsində beynəlxalq qurumlar irimiqyaslı yarışlara evsahibliyi hüququnu tərəddüd etmədən Azərbaycana verirlər.

Azərbaycanın Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyevanın elm, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə çoxşaxəli fəaliyyətində gimnastikanın da mühüm yer tutduğunu vurğulayan nazir müavini bildirib: "Mehriban xanım Əliyevanın 2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsi ilə bu sahədə dinamik inkişafın əsası qoyulub. Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkəmizdə gimnastika yeni inkişaf mərhələsinə qədəm qoyub. Mehriban xanımın əzmkar rəhbərliyi sayəsində Azərbaycan gimnastikasına münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişib. Son 16 ildə Bakı bir çox beynəlxalq gimnastika yarışlarına evsahibliyi edib. Ölkəmizdə gimnastikanın bütün növləri üzrə beynəlxalq yarışların keçirilməsi artıq ənənəyə çevrilib. Azərbaycanda gimnastika növlərinin, o cümlədən bədii gimnastikanın inkişafına böyük təkan verilib və gimnastika həvəskarlarının sayı ildən-ilə artır. Bu yolun davamı olaraq növbəti dəfə təşkil olunan dünya kubokunda da tamaşaçılar tanınmış bədii gimnastların təqdimatında zərifliyi və əzmkarlığı təcəssüm etdirən maraqlı idman mübarizəsinin şahidi olacaqlar".

Dünya kubokunun gərgin və maraqlı idman mübarizə şəraitində keçəcəyinə əminliyini bildirən İ.İsmayılov ölkəmizdə idmanın inkişafına göstərdikləri davamlı diqqət və qayğıya görə dövlət başçısı İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya dərin minnətdarlığını ifadə edib.

Qeyd edək ki, turnirdə 39 ölkədən 200-dən çox gimnast mübarizə aparır. Üç gün davam edəcək yarışlarda 25 qrup komandası və 70-dən çox gimnast çıxış edəcək. Yarışların birinci iki günündə təsnifat mərhələləri keçiriləcək və çoxnövçülükdə ən yüksək xal toplamış 8 fərdi gimnast, həmçinin qrup komandası final mərhələsinə adlayacaq. Aprelin 28-də isə final mərhələsinin qalibləri müəyyənləşəcək. Bununla yanaşı, ən çox icra xalını yığmış gimnast və qrup komandasına ənənəvi "AGF Trophy" kuboku da təqdim olunacaq.


## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin Protez Ortopedik Bərpa Mərkəzi dəri və yapışdırıcı vasitələrin satın alınması məqsədilə 14 mart 2019-cu il tarixdə elan edilmiş açıq tender üzrə "Dövlət satınalmaları haqqında" qanunun 11.1-ci maddəsinin tələbinə əsasən təklif vermiş iddiaçıların sayı üçdən az olduğu üçün açıq tenderin davamından imtina edir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**Balakən Rayon İcra Hakimiyyəti ictimai işlərdə çalışan işçilər üçün xüsusi geyimlərin və mal-materialın alınması məqsədilə təkliflər sorğusu elan edir.**

Təkliflər sorğusunda iştirak etmək istəyənlər sənədləri 02 may 2019-cu il saat 18:00-dək Balakən Rayon İcra Hakimiyyətinə təqdim etməlidirlər.

**Əlaqə telefonu:** 024295-12-15

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

**Bakı Ali Neft Məktəbi qısaqol köynəklərin kotirovkalar sorğusu üsulu ilə satın alınmasını həyata keçirir.**

Maraqlanan təşkilatlar (012) 521-00-00 (dax.: 33012) telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər Xocalı prospekti, 30 ünvanında 03 may 2019-cu il saat 15:00-a qədər qəbul olunur.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri idarəsi katriclərin alınmasını kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan şəxslər 4925306 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka prosedurasında iştirak etmək üçün sənədlər 2019.04.30 tarixinə qədər qəbul olunur.

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## B İ L D İ R İ Ş

İqtisadiyyat Nazirliyi "İstehlak Mallarının Ekspertizası Mərkəzi" MMC tərəfindən 17 aprel 2019-cu il tarixdə mətbəə işlərinin satın alınması üzrə keçirilmiş kotirovka sorğusunda Tender komissiyasının qərarına əsasən "Effekt Qrup" MMC qalib elan olunmuş və həmin MMC ilə satınalma müqaviləsi bağlanılmışdır.

*Tender komissiyası*


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Baş nazirin köməkçisi Sabir Bayramova qardaşı

**BAYRAM BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi Baş nazirin köməkçisi Sabir Bayramova qardaşı

**BAYRAM BAYRAMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Mahmud Məmmədov

**FİRUDDİN CAMALƏDDİN OĞLU ÖMƏROVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

"Günay Bank" və "Günay Sığorta" ASC-nin kollektivləri

**FİRUDDİN CAMALƏDDİN OĞLU ÖMƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

M.Ə.Əfəndiyev adına 2 №-li Şəhər Klinik Xəstəxanasının kollektivi Bəhruz və Bəhram Paşayevlərə anaları

**SƏDƏF XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Sumqayıt Dövlət Universitetinin rektorluğu universitetin İnformasiya texnologiyaları və proqramlaşdırma kafedrasının müdiri, professor Aqil Hüseynova qardaşı

**QABİL HÜSEYNOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 9098
Sifariş 1365
Qiyməti 40 qəpik